www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Həftəlik qəzet 29 aprel - 5 may 2026-cı il Çərşənbə № 16 (8865) Qiyməti 1 manat

Xəbər

## Amnistiyanın icrası bitdi, mayda əfv gözləntisi

yazısı səh.3-də

Ölkə

### Bakı-Ankara strateji ittifaqı - yeni mərhələ niyə ləngiyir?



Politoloqa görə, yeni mərhələnin reallaşmasını yubanma kimi yox, reallığa adekvat yanaşma kimi qəbul etmək lazımdır

yazısı səh.11-də

### Naxçıvana qatar yolu üçün 250 milyon dolları kim versin?

yazısı səh.4-də

### Benzin və dizelə niyə kvota tətbiq edilib?

yazısı səh.5-də

### Son rəsmi qəbulların Qəbələdə keçirilməsinin sirri

yazısı səh.4-də

### Tehranın Azərbaycanla sərhəddən yeni mesajı

yazısı səh.6-da

### Ölkəmizin yeni hərbi strategiyası

yazısı səh.8-də

### XİN-dən sürpriz qərar - diplomdan əvvəl diplomatiya

yazısı səh.12-də

### Solovyov üzr istəməyə məcbur oldu

yazısı səh.13-də

### Məktəblərdə çantalar niyə yoxlanılır?

yazısı səh.12-də

### Ermənistan yenə antitürk ittifaqlarında

yazısı səh.9-da

### Primakov niyə işini itirdi?

yazısı səh.13-də

# AZƏRBAYCANDA AES TİKİNTİSİ ÜÇÜN REFERENDUM

Qazaxıstan hökuməti 2024-cü ildə referendumdan sonra bu barədə son qərar verib; Milli Məclisdə təmsil olunan partiyanın sədri də ölkəmizdə ümumxalq səsverməsinin vacibliyini vurğulayır - reaksiyalar




yazısı səh.5-də

# Bakıda əhalinin 500 min artacağı proqnozu

Ekspertlər hesab edirlər ki, bu artım paytaxtda mövcud olan problemləri daha da dərinləşdirəcək

yazısı səh.10-da



### İranla danışan yəhudi kürəkən: Kuşnerin həyat hekayəsi...

yazısı səh.7-də



Məzahir Pənahov

### Yenilənmiş MSK ilk seçkiləri nə vaxt keçirəcək?

yazısı səh.10-da



Ceyhun Yusifov

### Milli Məclis terrorizmə görə cəzaları sərtləşdirdi - vəkilin izahı

yazısı səh.14-də

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026



## Qəbələdə daha bir qəbul

**Prezident İlham Əliyev aprelin 28-də Qəbələdə Birləşmiş Ərəb Əmirliklərinin Xarici İşlər Nazirliyinin Dövlət naziri Səid bin Mübarək Əl-Hacirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev strateji tərəfdaşlığa əsaslanan ikitərəfli əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini deyərək, bu xüsusda Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla dostluq münasibətlərinə toxunub.

Qəbula görə minnətdarlığını bildirən Səid bin Mübarək Əl-Haciri Azərbaycan Prezidentinin liderliyi ilə Cənubi Qafqaz regionunda sülh gündəliyinin irəli aparılması prosesində əldə edilmiş uğurlar, həmçinin Azərbaycanla Ermənistan arasında sülhün əldə olunması və dialoqun təşviqi istiqamətində göstərdiyi səylərə görə Azərbaycan Prezidentinin "Sülh və Barışıq üçün Gernika mükafatı"na layiq görülməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə ölkələrimiz arasında ikitərəfli gündəliyin zəngin olduğu vurğulanıb, siyasi, iqtisadi, ticari, enerji, həmçinin bərpaolunan enerji, birgə investisiya fondunun fəaliyyəti, birgə hərbi təlimlər və digər istiqamətlərdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.



## Sel ən çox bu rayonlara ziyan vurub

**Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və sel suları nəticəsində zərər görən ərazilərdə görüləcək işlərin siyahısı açıqlanıb.**

Bu, Prezident İlham Əliyevin sərəncamına əlavədə əksini tapıb.

Məlum olur ki, yağıntılar ən çox Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən və Xızı rayonlarına ziyan vurub.

Quba rayonunda sel və sürüşmə nəticəsində zərər görmüş yaşayış evləri, avtomobil yolları və elektrik xətləri bərpa ediləcək. Quba-İspik-Xınalıq, Quba-Qonaqkənd-Muçu və Yerfi-Adur yollarında uçqun, çökmə və sürüşmələrin nəticələrinin aradan qaldırılması nəzərdə tutulur. Qaraçayda daş-beton bənd tikiləcək.

Qusar rayonunda Aşağı Ləgər, Əniq və Quxuroba kəndlərində fərdi yaşayış evlərinin yenidən tikilməsi planlaşdırılır. Həmçinin Həzrə-Muçuq, Qusar-Həzrə-Sudur, Ukur-Nəcəfkənd-Zuxul, Cağar-Cetkün və Qusar-Əniq-Laza yollarında bərpa işləri aparılacaq.

Şabran rayonunda fərdi yaşayış evləri ilə yanaşı, Vəlvələçay-Taxtakörpü kanalı, Şabrançay və Dəvəçiçay ətrafında mühafizə tədbirləri görüləcək. Düzbilici-Vələsi-Çinarlar, Qaraqaşlı və Şabran-Qalaaltı yollarında da bərpa işləri nəzərdə tutulub.

Siyəzən rayonunda bir neçə ünvanda fərdi yaşayış evləri yenidən tikiləcək. Xızı rayonunda Sitalçay kəndində 5 fərdi yaşayış evi yenidən tikiləcək.

# Azərbaycanda pensiyaçılar niyə azalır?



**Son illər ən çox müzakirə olunan mövzulardan biri pensiya ilə bağlıdır.**

Belə ki, pensiya sistemində mövcud vəziyyət ictimaiyyət tərəfindən birmənalı qarşılanmır. Həm pensiya yaşının, həm pensiya kapitalının çox olması, pensiyanın varisə ötürülməsi kimi məsələlər davamlı olaraq müzakirə mövzusudur.

Mütəxəssislərin fikrincə, bizdə hər min nəfərə düşən pensiyaçıların sayı Ermənistan və Gürcüstandakılardan 1.5-2 dəfə azdır. Həmin ölkələrdə də pensiya yaşı Azərbaycanla eynidirsə, niyə bizdə hər min nəfərə düşən pensiyaçıların sayı daha azdır?

Məsələ ilə bağlı **iqtisadçı-ekspert Rəşad Həsənov** Cebheinfo.az-a bildirib ki, ümumiyyətlə, pensiyaçıların yaşına təsir edən bir sıra faktorlar var: "Həmin faktorlardan ən mühümü əhalinin yaşa görə strukturudur. Azərbaycanda əhali qismən Ermənistan və Gürcüstanla müqayisədə daha gəncdir. Yəni 65 yaşından yuxarı olan əhalinin xüsusi çəkisi Ermənistan və Gürcüstana nisbətən daha aşağıdır. Bu, faktorlardan biri kimi ortaya çıxır.

İkincisi, hökumətin apardığı sosial siyasət burada təsiredici amillərdən biridir. Xüsusilə də 2017-ci ildə "Əmək pensiyaları haqqında" Qanuna edilən dəyişikliklərdən sonra Azərbaycan pensiya alçatanlığında əhəmiyyətli geriləmə baş verdi.

Çünki yeni yanaşma gətirildi. Pensiya kapitalı tələbi, 25 il sığorta stajı tələbi və s. bu kimi məsələlər əslində mövcud pensiya sistemini ciddi şəkildə sarsıtdı. Bu, daha sonrakı mərhələdə əslində əlilliyə görə pensiyanın təyin edilməsi şərtlərinin təkmiləşdirilməsi siyasəti çərçivəsində prosesin daha da mürəkkəbləşməsi və sərtləşdirilməsi ilə müşahidə olundu.

Nəticədə pensiyaçıların sayı 1 milyon 330 min nəfərdən 1 milyon 100 min nəfərə qədər azaldı. Əslində ilbəil bu rəqəm artmalı idi. Bu, Azərbaycanda eyni zamanda digər sosial alətlərin də təsirini özündə ehtiva edən bir nəticədir.

Çünki Azərbaycanda yaşa görə sosial müavinətin verilməsi mexanizminə keçildi. Sosial müavinətin verilməsi o şəxslərə şamil olunur ki, onlar pensiya hüququ əldə edə bilmirlər. Ancaq minimum məbləğdə müavinət alırlar. Bu kateqoriyanın da sayı ilbəil artmaqdadır".

## Bakıda yeni metro stansiyası açılır?



**Paytaxtın mərkəzində hasara alınmış ərazidə yeni stansiya açılması ilə bağlı iddialar yayılıb.**

Milli.az xəbər verir ki, söhbət Yasamal rayonu ərazisində "Nizami" stansiyası yaxınlığındakı sahədən gedir.

Məsələ ilə bağlı "Bakı Metropoliteni" QSC-dən bildirilib ki, dövlət proqramı çərçivəsində "Nizami" stansiyasına yaxın ərazidə B5 stansiyası inşa olunacaq. Bu stansiya Mərkəzi Parkın altında yerləşəcək və oradan "Nizami" stansiyasına keçid təmin ediləcək.

Həmçinin qeyd olunur ki, bu layihənin məqsədi metroda alternativ çıxış imkanlarını artırmaq və xüsusilə texniki nasazlıqlar zamanı yaranan çətinlikləri aradan qaldırmaqdır.

Layihənin 2030-cu ilə qədər tamamlanması planlaşdırılır və şəhər nəqliyyatına əlavə rahatlıq gətirəcəyi gözlənilir.

## Daha bir məşhur veriliş bağlandı




**Azərbaycanda daha bir verilişin yayımı dayandırılıb.**

"MTV Azərbaycan" kanalında müğənni Kərim Abbasovun aparıcılıq etdiyi "Meqa şou" verilişi bağlanıb.

Ötən həftə verilişin təkrar buraxılışları yayımlansa da, yeni həftədən proqramın yayımı dayandırılıb.

Məlumata görə, verilişin bağlanmasına səbəb büdcənin yetərsiz olması olub.

Müğənninin meneceri Rusif Hüseynov faktı təsdiqləyib:

"Təəssüf ki, xəbər doğrudur. Kərim Abbasovun "Meqa şou" verilişi artıq yayımını dayandırıb. Düzdür, büdcə ilə bağlı problemlər olsa da, verilişin bağlanması bir az da bizim işlərimizlə bağlı oldu. Çünki hər dəfə verilişin yayım saatı dəyişdirilirdi, tədbirlərimizlə üst-üstə düşürdü. Buna görə də yayımı dayandırmaq qərarı verdik".




## "ASAN Xidmət"ə yeni səlahiyyət verildi

**Prezident İlham Əliyev "Dövlət xidmətləri haqqında" 31 oktyabr 2025-ci il tarixli qanunun tətbiqi və bundan irəli gələn bir sıra məsələlərin tənzimlənməsi barədə 3 dekabr 2025-ci il tarixli fərmanında dəyişiklik edib.**

Bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb.

Fərmana əsasən, İqtisadiyyat Nazirliyinə və Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə ("ASAN Xidmət") yeni səlahiyyət verilib.

Belə ki, dövlət xidmətinin istifadəçisi üçün vahid hüquqi nəticənin yaranmasına səbəb olan hər hansı bir inzibati icraat fərqli xidmət təminatçıları tərəfindən təmin edilən bir neçə dövlət xidmətindən ibarətdirsə, həmin dövlət xidmətləri İqtisadiyyat Nazirliyi, vahid xidmət mərkəzlərində isə "ASAN Xidmət" tərəfindən əlaqələndirilməklə formalaşdırılmalıdır.

Bundan başqa, dövlət xidmətinin göstərilməsi ilə əlaqədar həmin xidmət üzrə xidmət təminatçısından əlavə sahibkarlıq fəaliyyəti ilə məğul olan fiziki və hüquqi şəxslər tərəfindən əlavə xidmətlər göstərilirsə, həmin fiziki və hüquqi şəxslərin siyahısı xidmət təminatçısının və "ASAN Xidmət"in müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet informasiya ehtiyatında yerləşdirilir və aktuallığı təmin edilir.



## Saleh Məmmədovun yaxın qohumları işdən çıxarıldı

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) sabiq rəhbəri Saleh Məmmədovun ailə üzvləri olan vəzifəli şəxslər işdən çıxarılıb.**

Gundeminfo.com xəbər verir ki, onlardan biri 1 N-li Regional Avtomobil Yollarının Yaşıllaşdırılması və Ekologiyası MMC-nin rəhbəri S.Məmmədovun yeznəsi Dilavər Həmzəyev MMC ötən həftə ləğv edildiyinə görə işini itirib.

S.Məmmədovun AAYDA-da yüksək vəzifə tutan əmisi oğlu, 1 saylı Yol İstismar İdarəsinin müdiri Zaur Həmzəyev, xalası oğlu - 10 saylı Xüsusi Təyinatlı Yol İstismar İdarəsinin rəhbəri Araz Bəndəliyev, qardaşı oğlu - 9 saylı Yol İstismar İdarəsinin baş mühasibi Toğrul Həmzəli, bacısı - AAYDA-nın Əməyin Təşkili şöbəsinin müdiri Təhminə Həmzəyeva, bacısı - "Azəryolelmitədqiqatlayihə" İnstitutunun baş mühasibi Mətanət Həmzəyeva, yeznəsi - 3 saylı Yaşıllaşdırma İdarəsinin rəisi Ustubat Nifteliyev ötən həftə tutduqları vəzifələrdən azad ediliblər.

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

# Amnistiyanın icrası bitdi, mayda əfv gözləntisi

## Amnistiyadan sonra əfv sərəncamının verilməsi hüquqi baxımdan məntiqsiz deyil, əksinə, bir çox hallarda bu iki mexanizm bir-birini tamamlayır, amma...



**Azərbaycanda 13-cü amnistiya aktının icrası başa çatıb və bu akt 22 935 nəfəri əhatə edib. Ədliyyə Nazirliyindən bildirilib ki, qərarın icrası tam yekunlaşıb. Məlumata əsasən, 5 348 nəfər azadlıqdan məhrumetmə cəzasından tam azad edilib, 3 555 məhkumun cəzasının çəkilməmiş hissəsi 6 ay azaldılıb, 9 714 nəfərə azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalar tətbiq edildiyindən onlar amnistiyaya düşüb.**

Bəllidir ki, amnistiya sadəcə hüquqi qərar deyil - bu, dövlətin cəmiyyətə verdiyi çoxqatlı mesajdır. Birincisi, bu addım humanizm və "ikinci şans" ideyasının gücləndirilməsi kimi təqdim olunur. İkincisi, rəqəmlər diqqət çəkir: 22 mindən çox insanın əhatə olunması həm hüquq-mühafizə sisteminə, həm də cəmiyyətə ciddi təsir edir. Bu qədər insanın eyni anda cəmiyyətə reinteqrasiyası sosial adaptasiya mexanizmlərinin nə qədər effektiv olduğunu test edəcək.

Bu amnistiya həm sosial yumşalma addımıdır, həm də siyasi və ideoloji kontekstdə təqdim olunan güclü mesajdır. Onun real nəticələri isə əsasən yaxın 1-2 ildə bu şəxslərin cəmiyyətə necə inteqrasiya olunacağından asılı olacaq.

Minlərlə məhkumun azadlığa buraxılması və ya cəzasının yüngülləşdirilməsi cəmiyyətdə yeni bir sualı aktuallaşdırıb: növbəti addım nə olacaq - may ayında əfv sərəncamı gözlənilirmi?

Ənənəvi olaraq Azərbaycanda əfv sərəncamları müəyyən əlamətdar tarixlər ərəfəsində imzalanır. Xüsusilə yaz ayları, bayramlar və siyasi-humanitar gündəlik bu qərarların verilməsində mühüm rol oynayır. Bu baxımdan may ayı da istisna deyil və ictimai gözləntilər artıq formalaşmağa başlayıb.

Amnistiya ilə əfv arasında fərq isə prinsipialdır. Amnistiya parlament tərəfindən qəbul edilən və geniş kütləni əhatə edən hüquqi aktdır. Əfv isə fərdi xarakter daşıyır və konkret şəxslərə şamil olunur. Bu səbəbdən amnistiyadan sonra əfv sərəncamının verilməsi hüquqi baxımdan məntiqsiz deyil, əksinə, bir çox hallarda bu iki mexanizm bir-birini tamamlayır.

Hazırkı vəziyyətdə əsas müzakirə mövzusu budur: amnistiya ilə əhatə olunmayan şəxslər üçün yeni bir humanist addım atılacaqmı? Xüsusilə ağır maddələrlə məhkum olunmuş, lakin müəyyən meyarlara cavab verən şəxslərin əfv siyahısına düşə biləcəyi ehtimalı diqqət mərkəzindədir.

Hələlik rəsmi açıqlama yoxdur. Lakin əvvəlki illərin təcrübəsi göstərir ki, amnistiyadan sonra əfv qərarının verilməsi ehtimalı heç də az deyil. İndi isə diqqətlər may ayına yönəlib: yeni bir "ikinci şans" dalğası gəlirmi, yoxsa bu mərhələ bununla yekunlaşır?

Bu sualın cavabı yaxın həftələrdə aydınlaşacaq. Amma artıq indidən bəllidir ki, cəmiyyət növbəti qərarı gözləyir.

Mövzu ilə bağlı **Demokratiya və İnsan Hüquqları komitəsinin sədri, Hüquq üzrə fəlsəfə doktoru Çingiz Qənizadə** "Yeni Müsavat"a danışıb. Hüquq müdafiəçisi qeyd edib ki, sonuncu amnistiya aktı həm əhatə dairəsinə, həm də humanist mahiyyətinə görə əvvəlki illərdə qəbul edilmiş analoji qərarlarla müqayisədə daha geniş və daha əhatəli xarakter daşıyıb: "Belə ki, bu aktın 20 mindən artıq şəxsə şamil ediləcəyi proqnozlaşdırılırdı və yekunda məlum oldu ki, amnistiya ümumilikdə 22 min 935 nəfəri əhatə edib. Bu isə onu göstərir ki, qəbul edilmiş qərar yalnız hüquqi deyil, eyni zamanda sosial-humanitar baxımdan da olduqca mühüm əhəmiyyət kəsb edir. Məlumdur ki, ölkədə cəzaçəkmə müəssisələrində müəyyən sıxlıq mövcuddur və eyni zamanda cinayət törədən şəxslərin sayında artım müşahidə olunur. Hüquq-mühafizə orqanları törədilmiş cinayətlərin qarşısının alınması və günahkar şəxslərin məsuliyyətə cəlb edilməsi istiqamətində qətiyyətli addımlar atır, onları operativ şəkildə ifşa edərək həbs edir və müvafiq cəzaçəkmə müəssisələrinə göndərir. Bu baxımdan amnistiya aktının qəbul edilməsi həm hüquqi sistemin balanslaşdırılması, həm də cəzaçəkmə müəssisələrindəki yüklənmənin azaldılması baxımından olduqca vacib addım idi".

**Ç.Qənizadə qeyd etdi ki, bu amnistiya nəticəsində təxminən 5 minə yaxın şəxs cəzaçəkmə müəssisələrindən azad olunub. Bununla yanaşı, digər kateqoriyadan olan şəxslər - yeni cəzaları azaldılanlar, məntəqə tipli cəzaçəkmə müəssisələrində saxlanılanlar, istintaq altında olanlar və məhkəmə prosesləri davam edən şəxslər də bu aktın təsir dairəsinə daxil ediliblər:** "Bu isə amnistiyanın yalnız məhkum olunmuş şəxslərlə məhdudlaşmadığını, həm də istintaq və məhkəmə mərhələsində olan işlərə şamil edildiyini göstərir. Belə geniş spektrli yanaşma isə amnistiya aktının nə qədər əhatəli və sistemli hazırlandığını bir daha təsdiqləyir.

Hazırda isə cəmiyyətdə və xüsusilə hüquq müdafiəçiləri arasında tez-tez belə bir sual səslənir: növbəti humanist addım nə olacaq? Cəzaçəkmə müəssisələrində aparılan mütəmadi monitorinqlər zamanı həm məhkumlar, həm də onların yaxınları tərəfindən tez-tez bu məsələ ilə bağlı suallar verilir. Onları maraqlandıran əsas məsələ isə növbəti əfv sərəncamının nə vaxt veriləcəyi ilə bağlıdır. Qeyd edək ki, Azərbaycan cəmiyyətində artıq müəyyən ənənə formalaşıb - belə ki, əlamətdar günlərdə ölkə Prezidenti tərəfindən əfv sərəncamlarının imzalanması halları tez-tez müşahidə olunub. Ümumilikdə bu günə qədər 65-dən artıq əfv sərəncamı imzalanıb və xüsusilə may ayı - Ulu öndərin doğum günü və 28 May Müstəqillik Günü kimi əlamətdar tarixlərdə belə qərarların verilməsi ehtimalı hər zaman müzakirə mövzusu olub".

**Çingiz Qənizadənin qənaətinə görə, bu qədər genişmiqyaslı amnistiya aktından dərhal sonra yeni bir əfv sərəncamının verilməsi ehtimalı o qədər də yüksək görünmür:** "Çünki ardıcıl şəkildə həm amnistiya, həm də əfv aktlarının verilməsi cəza siyasətində müəyyən balansın pozulması kimi qiymətləndirilə bilər. Dövlət siyasətində hər addımın öz zamanı və zərurəti olmalıdır.

Xüsusilə nəzərə alsaq ki, amnistiya aktının icrası cəmi bir neçə gün əvvəl - 19 aprel tarixində başa çatıb, bu halda qısa müddət ərzində yeni bir əfv sərəncamının verilməsi real görünmür. Bundan əlavə, adətən əfv sərəncamlarının hazırlanması prosesi müəyyən zaman tələb edir. Əfv Komissiyası əvvəlcədən fəaliyyətə başlayır, müraciətlər toplanır, siyahılar hazırlanır və geniş müzakirələr aparılır. Lakin hazırda belə bir prosesin getdiyi müşahidə olunmur və may ayının başlanmasına da artıq sayılı günlər qalıb.

Bu səbəbdən hesab etmək olar ki, bu ilin may ayında əfv sərəncamının imzalanması ehtimalı aşağıdır. Bununla belə, unudulmamalıdır ki, əfv sərəncamı vermək Azərbaycan Prezidentinin konstitusion hüququdur və bu qərar istənilən vaxt qəbul edilə bilər. Dövlət başçısı istər fərdi qaydada bir neçə nəfərə, istərsə də geniş siyahı üzrə yüzlərlə şəxsə şamil edilən əfv sərəncamı imzalaya bilər".

**Çingiz Qənizadə sonda vurğulayıb ki, ümumilikdə gözləntilər daha çox ilin sonuna, xüsusilə 31 dekabr, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsinə yönəlir:** "Əvvəlki illərin təcrübəsi də göstərir ki, məhz bu tarixdə daha genişmiqyaslı əfv sərəncamlarının verilməsi ehtimalı yüksək olur. Bu baxımdan ümid etmək olar ki, ilin sonunda növbəti böyük humanist addım atılacaq və bir sıra şəxslər azadlığa qovuşacaq".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**



## Prezident sel və leysan sularından ziyan çəkənlərə vəsait ayırdı

**Prezident İlham Əliyev sel və daşqınların təhlükəli və zərərli təsirlərinə qarşı mübarizə ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel suları nəticəsində dəymiş zərərin fəsadlarının aradan qaldırılması istiqamətində görülən işlərin davamlılığının təmin edilməsi üçün ümumilikdə 85.869.260,0 (səksən beş milyon səkkiz yüz altmış doqquz min iki yüz altmış) manat, o cümlədən Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 8.876.210,0 (səkkiz milyon səkkiz yüz yetmiş altı min iki yüz on) manat, Bakı Şəhər İcra Hakimiyyətinə 1.437.315,0 (bir milyon dörd yüz otuz yeddi min üç yüz on beş) manat, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinə 21.443.875,0 (iyirmi bir milyon dörd yüz qırx üç min səkkiz yüz yetmiş beş) manat, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 39.103.600,0 (otuz doqquz milyon bir yüz üç min altı yüz) manat və "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinə 15.008.260,0 (on beş milyon səkkiz min iki yüz altmış) manat vəsait ayrılıb.

Bakı şəhəri Xətai rayonu Keşlə qəsəbəsi R.Bağırov küçəsi, 36/12 "b" ünvanında sökülmüş fərdi yaşayış evinin sakinlərinə birdəfəlik maddi yardım ödəniləcək. Prezident sərəncamı ilə təsdiqlənən Bakı şəhərində və Azərbaycanın müxtəlif bölgələrində güclü leysan yağışları və yaranan sel sularının dəymiş zərərin fəsadlarının aradan qaldırılması ilə bağlı görüləcək işlərin siyahısı"nda əksini tapıb.

Sərəncama əsasən, Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi M.Ə.Sabir və B.Mirzəyev küçələrində çirkab suların təsirinə məruz qalmış 61 fərdi yaşayış evinin təmirbərpası və yararsız hala düşmüş məişət əşyalarına görə maddi yardım veriləcək (qiymətləndirmə xərcləri daxil olmaqla), həmin yaşayış evlərinin sakinlərinin 3 aylıq kirayə haqlarının ödəniləcək (bank xərcləri daxil olmaqla).

Eyni zamanda Bakı şəhəri, Xətai rayonu, Keşlə qəsəbəsi R.Bağırov küçəsi, 36/12 "b" ünvanında sökülmüş fərdi yaşayış evinin sakinlərinə birdəfəlik maddi yardım ödəniləcək.



# Son rəsmi qəbulların Qəbələdə keçirilməsinin sirri

## **Deputat:** "Prezident təkcə Bakını deyil, ölkənin bölgələrini də beynəlxalq platformalara yönəldir"

**Son zamanlar bir sıra beynəlxalq tədbirlərin, fərqli ölkələrin dövlət və hökumət başçıları ilə görüşlərin Qəbələdə keçirildiyini müşahidə edirik.**

Azərbaycan Prezidenti İlham Əliyev aprelin 25-də məhz Qəbələdə Ukrayna Prezidenti Volodimir Zelenski ilə görüşüb. Aprelin 26-da isə Çexiyanın baş nazirini də Qəbələdə qəbul edib. Bundan əvvəl 2025-ci il oktyabrın 7-də Türk Dövlətləri Təşkilatının dövlət başçılarının zirvə görüşü də Qəbələdə baş tutmuşdu. Bütün bunlar onu göstərir ki, Qəbələ artıq yeni diplomatik mərkəzə çevrilir.

**Milli Məclisin deputatı Zahid Oruc** Bakupost.az-a bildirib ki, belə bir yanaşma strateji xətdən irəli gəlir: "Görürük ki, Azərbaycan Prezidenti təkcə Bakını deyil, ölkənin bölgələrini də beynəlxalq platformalara yönəldir. Burada strateji bir xətt var: Azərbaycanın regionları da təqdim olunur".

**Deputatın fikrincə, mühüm dövlət tədbirləri və görüşlərin Şuşada da keçirilməsi qələbəmizə gedən yolun təqdimatı baxımından mühüm əhəmiyyət daşıyır:** "Azərbaycanın dövlət başçısı Vətən müharibəsindəki qələbədən sonra əsasən də Şuşa şəhərini beynəlxalq görüşlərin, dövlətlərarası danışıqların, çoxtərəfli beynəlmiləl konfrans və toplantıların əsas siyasi mərkəzinə çevirir. Bu, öz-özlüyündə azad edilmiş torpaqlarımızın yenidən dünyaya təqdimatı, Qarabağ gerçəklərini əyani şəkildə göstərmək formasıdır. Bütün bunlar həmçinin quruculuq proseslərinə başqa ölkələrin rəhbərlərini cəlb etmək, proseslə bağlı onların düşüncə və baxışlarını formalaşdırmaq, müəyyən səviyyədə maliyyə yardımlarının əldə olunması baxımından mühüm addımdır".

**Dövlət və hökumət başçıları ilə görüşlərin, vacib beynəlxalq tədbirlərin Qəbələ şəhərində keçirilməsinə gəldikdə, həmsöhbətimiz qeyd edir ki, Qəbələ siyasi, həmçinin turistik, iqtisadi mərkəz olmağa layiq şəhərdir:** "İkinci Qarabağ savaşı dövründə Qəbələ kimi alternativ yerlərin mühüm logistik məkanlar olduğunu, təhlükəsizlik mənası daşıdığını da gördük. Belə danışıqlar Gəncə və ya başqa rayonlarda da ola bilər. Ancaq Qəbələ və ətraf ərazilər mühüm turistik məkanlardır, buralar geniş təbiət zənginliyinə malikdir. Orada infrastruktur quruculuğu daha yaxşı inkişaf edib.

Dövlət və hökumət rəsmiləri ilə görüşlər praktik məna daşıyır, sonrakı dövrdə qərarlara çevrilir. Hər bir belə əyani görüş və təqdimatlar növbəti dövrdə yeni əməkdaşlıq layihələrini meydana gətirir".

**Deputatın fikrincə, təhlükəsizlik baxımından zəmanətli olması, ora yatırılacaq böyük investisiyaların geri dönüş imkanları, kriminogen durumun sabitliyi, ərazinin əmək ehtiyatları imkan verir ki, Qəbələ zona üzrə bir iqtisadi vahid kimi inkişaf etsin:** "Prezidentin Qəbələni siyasi paytaxta çevirmək addımları ölkənin harmonik inkişaf etdirilməsi strategiyasının tərkib hissəsidir".

**"Ermənistan dəmir yollarının idarə olunmasını almaq istəyən potensial alıcı ən azı 250 milyon dollar ödəməli olacaq". "Yeni Müsavat" xəbər verir ki, bu ilkin hesablamanı jurnalistlərə açıqlamasında Rusiya Təhlükəsizlik Şurası katibinin müavini Aleksey Şevtsov təqdim edib. Şevtsovun sözlərinə görə, bununla yanaşı, hər il təxminən 40 milyon dollar istismar xərclərinə sərf olunmalıdır. Bundan əlavə, dəmir yolunun İcevan sahəsinin bərpasına təxminən 400 milyon, Vanadzor-Fioletovo xəttinin bərpası üçün 200 milyon dollar lazım gələcək.**

# Naxçıvana qatar yolu üçün 250 milyon dolları kim versin?

## Ermənistan dəmir yollarını Rusiyadan qoparmaq müşkülü ilə üzləşib - "Tramp yolu" baş tutmaya bilər




Həmçinin Türkiyə və Naxçıvan Muxtar Respublikası ilə sərhəd istiqamətlərində yolların bərpasına da daha 40 milyon dollar investisiya yatırılmalıdır. O vurğulayıb ki, hazırkı müqavilə Rusiya tərəfi ilə Ermənistan üçün mümkün qədər əlverişli şərtlərlə bağlanıb. Onun sözlərinə görə, Ermənistan Avrasiya İqtisadi İttifaqından çıxacağı təqdirdə yükdaşımaların həcmi mütləq azalacaq. Şevtsov əlavə edib ki, nəticələr gözləniləndən də ağır ola və Ermənistanın ittifaqdan ayrılması sosial-iqtisadi baxımdan daha böyük itkilərlə nəticələnə bilər.

Yada salaq ki, bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan "Cənubi Qafqaz Dəmir Yolları" QSC-nin (Rusiya Dəmir Yollarının törəmə şirkəti) idarəçiliyinin guya ölkə üçün qeyri-rəqabət yaratdığını demiş və idarəçiliyin üçüncü ölkəyə verilməsini təklif etmişdi. O, idarəetmənin Qazaxıstan, BƏƏ və ya Qətər kimi "Ermənistana dost ölkələrə" satıla biləcəyini bildirib. Paşinyan hətta konkretləşdirərək Rusiya tərəfinin razı olacağı təqdirdə, dəmir yollarının idarəsinin Qazaxıstan şirkətinə verilməsinə İrəvanın etiraz etdiyini demişdi. Öz növbəsində Rusiyanın nəqliyyat naziri Andrey Nikitin belə bir ötürmə ilə bağlı danışıqlar aparılmadığını bildirib. Rusiyanın baş nazir müavini Aleksey Overçuk Moskvada erməni nümayəndə heyəti ilə görüşdən sonra bildirib ki, "Cənubi Qafqaz Dəmir Yolları" şirkətinin üçüncü tərəfə satılması üçün heç bir obyektiv səbəb yoxdur.

Bir tərəfdən, Nikol Paşinyan hökuməti dəmir yollarının idarəçiliyini üçüncü tərəflərə açmaqla həm alternativ tərəfdaşlar qazanmaq, həm də Rusiyadan asılılığı azaltmaq istəyir. Digər tərəfdən isə Moskva bu addımı iqtisadi baxımdan əsassız və riskli sayır. Aleksey Şevtsov tərəfindən səsləndirilən rəqəmlər də göstərir ki, söhbət sadəcə idarəetmənin dəyişməsindən yox, yüz milyonlarla dollarlıq yeni investisiya razılaşmasından gedir.

Əsas məsələ ondadır ki, Ermənistanın dəmir yolu infrastrukturu uzun illərdir ciddi investisiya çatışmazlığından əziyyət çəkir. Bu şəraitdə yeni operatorun tapılması problemi həll etmir, əksinə, böyük maliyyə öhdəlikləri yaradır. Üstəlik, İcevan və Vanadzor istiqamətləri kimi strateji xətlərin bərpası üçün tələb olunan vəsaitlər layihənin kommersiya cəlbediciliyini sual altına qoyur.

Digər kritik məqam Ermənistanın Avrasiya İqtisadi İttifaqı ilə bağlı gələcək kursudur. Əgər İrəvan bu platformadan uzaqlaşarsa, yükdaşımaların azalması qaçılmaz görünür. Bu isə dəmir yollarının iqtisadi səmərəliliyini daha da zəiflədə bilər. Yəni yeni investor üçün risklər təkcə texniki yox, həm də bazar həcmi ilə bağlıdır.

**ReAl Partiyasının Siyasi Komitəsinin sədri Natiq Cəfərli**nin "Yeni Müsavat"a bildirdiyinə görə, Rusiya və Ermənistan arasında dəmir yollarının idarə olunması ilə nin yerin yetirilmədiyini əsas gətirib məhkəmə yolu ilə müqaviləyə xitam verməsi istisna deyil. Ancaq hər iki tərəf yaxşı başa düşür ki, bu məsələ məhkəmə yox, siyasi mövzudur. Belə desək, Ermənistanın Rusiyadan qarşılıqlı razılıq almadan elə bir qərar verməsini gözləmirəm".

**Dəmiryol xətlərinin başqa ölkəyə verilməsinə gəldikdə, partiya lideri qeyd edib ki, Ermənistan Rusiyasız bunu də bilməz və yalnız yeni xətlər çəkməyə başlaması mümkündür:** "Ancaq bu halda da problem yaranacaq. Çünki yeni dəmiryol xətləri harasa birləşməlidir. Onda da yenə Rusiya dəmir yollarına birləşəcək. Azərbaycanla yeganə çıxış yolu budur ki, sərhəddən aralı bir xətt çəksinlər, Ermənistandan Naxçıvana gedən dəmiryol olsun. Üstəlik, buna imkan var, çünki müqavilədə qeyd olunmayıb. Hətta belə bir layihəni ABŞ edə bilər. Sadəcə, bu ideyaya Ermənistan daxilində narazılıq olacaq. Deyiləcək ki, bunun bizə nə faydası var?! Bir sözlə, həm siyasi, həm iqtisadi, həm də hüquqi problemlər var və bir-birinə qarışıb".

N.Cəfərlinin fikrincə, Rusiya dəmiryollarına nəzarəti əldən vermək istəmir. Hətta bağlı müqavilə 2045-ci ilə qədər imzalanıb. Onun fikrincə, bununla belə, İrəvan müqaviləni poza bilər və müəyyən səbəblər göstərmək imkanı var: "Məsələn, investisiya ilə bağlı narazılıq etməsi mümkündür. Yəni investisiya qoyuluşu tələbləri-

**"Tramp yolu" açılarsa, Rusiyanın sərhəd və ya gömrük xidməti vasitəsilə marşruta kontrolu əlində saxlamaq istədiyini deyən ReAL sədri hesab edir ki, bu layihənin gələcəkdə baş tutmamaq riskləri da var:** "Məsələn, ABŞ-nin bu logistikaya marağı azalarsa və ya regionda geri çəkilərsə, Rusiya dəhlizə nəzarəti əlində saxlaya bilər. Ona görə də açıq demək lazımdır ki, hazırda Ermənistanın çıxılmaz vəziyyətə düşdüyünü görürük. Elə bu səbəbdən, Azərbaycan doğru qərar verdi ki, "Tramp yolu" müqaviləsində imzası olmadı. Bu, onların məsələsidir. Əks halda, Azərbaycan da sözügedən mübahisənin bir predmetinə çevrilə bilərdi. O nöqteyi-nəzərdən, yaxın aylarda müəyyən qərarlar olacaq. Xüsusən də Rusiya ABŞ ilə böyük anlaşma istəyir. Rusiya düşünür ki, "Tramp yolu"nun ABŞ-yə aid olmasına baxmayaraq, layihədən istifadəsi onun üçün qazanc ola bilər. Çünki sanksiyalar altındadır".

**Onun sözlərinə görə, Ermənistanın Avrasiya İqtisadi Birliyindən çıxa biləcəyi yönündə bəyanatlar isə seçki ərəfəsində səslənən fikirlərdir:** "Hətta Ermənistan bu təşkilatın üzvlüyündən çıxsa belə, yaxın 20 ildə Avropa İttifaqına üzv ola bilməyəcək. Sadəcə, seçki kampaniyası dövründə tərəflərin mövqeyi eşidilir. Üstəlik, iki ölkə arasında ticarət dövriyyəsi artır".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

Yeni MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

# Azərbaycanda AES tikintisi üçün referendum

## Qazaxıstan hökuməti 2024-cü ildə referendumdan sonra bu barədə son qərar verib; Milli Məclisdə təmsil olunan partiyanın sədri də ölkəmizdə ümumxalq səsverməsinin vacibliyini vurğulayır - reaksiyalar

**Azərbaycanın energetika nazirinin bir müddət əvvəl ölkəmizin nüvə enerjisindən istifadə üçün AES tikintisi niyyətində olduğunu açıqlamasından sonra bu mövzuda müzakirələr davam edir. “Yeni Müsavat” qeyd edir ki, 80-ci illərdə SSRİ Nazirlər Kabinetinin qərarı ilə Azərbaycanda da AES-in tikilməsi qərara alınıb. Həmin dövrdə stansiyanın Nəvahi yaxınlığında yeri də seçilibmiş. Layihəsi işlənib, reaktor blokun özülü də qoyulubmuş. Ancaq 1986-cı ildə Çernobılda baş verən qəzadan sonra stansiyanın tikintisi dayandırılıb.**

Əsas müzakirələr AES-i hansı ölkənin inşa edəcəyi, nə qədər təhlükəsiz olması ətrafında gedir. Yerli ekspertlərin fikrincə, nüvə energetikası yüksək riskli sahə olsa da, alternativ enerji mənbələri ilə müqayisədə həddindən artıq sərfəlidir. Çünki nüvə enerjisində kapital tam olaraq qayıdır, üstəlik istismar müddəti də uzundur.

**Ədalət, Hüquq, Demokratiya (ƏHD) Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev** bu mövzuda partiyanın mətbuat xidmətinin sualını cavablandırıb. Q.Həsənquliyev deyib ki, bu barədə qərar geniş müzakirələrdən sonra ümumxalq səsverməsi ilə qəbul olunmalıdır: “Əvvəllər bunun tərəfdarı olsam da, indi elmin və texnologiyanın inkişafı ilə təhlükəsiz, bərpaolunan enerji qaynaqları yaratmaq imkanlarımız var. Bu istiqamətdə ciddi işlər görülür. Ona görə qərar qəbul etməzdən öncə hər birimiz ciddi düşünməli, xalqın fikrini öyrənməliyik. Külək və günəş enerjisindən istifadə etməklə böyük bərpaolunan enerji ehtiyatı yarada bilərik. Biz hazırda xaricə enerji satırıq. Atom enerjisi çox ucuz başa gəlir və xarici ölkələr tərəfindən şirniklendirici biznes layihələri təklif oluna bilər. Çernobıl faciəsindən sonra Almaniya bütün nüvə reaktorlarının dayandırılması barədə qərar qəbul etdi. Allah uzaq etsin, bizim ərazimiz kiçik olduğundan, bir qəza baş versə, Azərbaycanda həyat olmayacaq”. Qazaxıstanda 2024-cü ildə atom elektrik stansiyalarının tikilməsi barədə qərar verilmədiyi üçün referendum keçirilib. Səsvermədə iştirak edənlər dövlətin bu qərarına etiraz etməyiblər. Bundan sonra “Rosatom” şirkəti Qazaxıstanda ilk AES tikintisi layihəsi üzrə beynəlxalq konsorsiumun qalibi seçilib.




Bəs AES tikintisi üçün referendum keçirilməsi təklifinə digər siyasilər nə deyir?

**Deputat Asim Mollazadə** “Yeni Müsavat”a bildirdi ki, AES tikintisi üçün referendum tələbi yoxdur. Onun sözlərinə görə, sadəcə, bu layihənin reallaşmasından əvvəl məsələ ciddi şəkildə araşdırılmalıdır. “Çünki Azərbaycanda seysmik zonalar çoxdur və bu da AES-lə bağlı riskləri ortaya qoyur. Ona görə biz bu haqda ciddi düşünməliyik, sonra qərar verməliyik. Ancaq nəzərə almaq lazımdır ki, ilk növbədə böyük proses gedir. Söhbət "yaşıl enerji"yə keçiddən gedir. O baxımdan, ola bilsin ki, bu layihə baş tutmasın".

**Deputat vurğuladı ki, düzdür, ABŞ-də və başqa ölkələrdə AES tikintisi geniş yayılmış üsuldur:** “Sovet İttifaqı isə Çernobılı yaratmışdı. Ancaq indi bir sıra ölkələr ehtiyat edirlər. Məsələn, Yaponiyada sunami nəticəsində faciə yaşanmışdı. Ona görə çalışmaq lazımdır ki, "yaşıl enerji" texnologiyaları geniş istifadə olunsun və Azərbaycanda energetika bu yöndə inkişaf etdirilsin".

**Hüquqşünas Qulamhüseyn Əlibəyli də qeyd edib ki, AES tikintisini adi qaydada həll etmək olar:** “Referendum keçirilməsinə ehtiyac yoxdur. Bu məsələlər icra qaydasında həyata keçirilir. Referendum təklifi səslənə bilər, amma ehtiyac yoxdur”.

**AES tikintisinə gəlincə, Q.Əlibəyli xüsusi zərurət görmür:** “Enerji təhlükəsizliyi dünyada aktual məsələdir. İndiki dövrdə onun təhlükəsizliyini təmin etmək üçün müasir texnologiyalar da var. Amma belə bir layihənin Azərbaycanda reallaşmasına xüsusi ehtiyac yoxdur”.

Qeyd edək ki, 2026-cı ilin ilk rübünə dair məlumatlar da var. Əsasən, Azərbaycanda yaşıl enerji istehsalı artıb, 925 mln. kVtəst-dan çox yaşıl enerji istehsal edilib. Qarabağ və Şərqi Zəngəzurda yaşıl enerji zonaları yaradılması və “Xəzər-Qara dəniz-Avropa” kimi beynəlxalq dəhliz layihələrinin genişləndirilməsi ilə yanaşı, Mərkəzi Asiya-Azərbaycan yaşıl enerji dəhlizi də strateji əhəmiyyət kəsb edir.

Azərbaycanda 4 reaktorlu AES layihəsi hazırlanıb. Hər reaktorun gücü 1000 MVt nəzərdə tutulub. O dönəmdə VVER tipli texnologiya seçilmişdi. Energetiklər üçün şəhərcik və infrastruktur artıq formalaşmağa başlamışdı. Lakin layihə həyata keçirilmədi. Çernobıl faciəsi və siyasi proseslər bu layihənin tamamlanmasına imkan vermədi.

Azərbaycan 2014-cü ildən etibarən nüvə tədqiqatlarına yenidən sistemli şəkildə qayıdıb. Həmin il Milli Nüvə Tədqiqatları Mərkəzi yaradılıb. Lakin 2021-ci ildə ləğv olunub.

**Mərkəzin sədri olmuş Adil Qəribovun fikrincə, Azərbaycan kimi ölkələr üçün nüvə stansiyası tikilərkən bir neçə amil əsas götürülməlidir:** “Təhlükəsizlik və uzunmüddətli istismar təcrübəsi, texnologiyanı təqdim edən ölkə ilə strateji əməkdaşlıq, yanacaq təminatının sabitliyi nəzərə alınmalıdır”.

**O, Azərbaycan üçün Rusiyanın VVER tipli 600 MVt-lıq reaktor modelini daha uyğun variant kimi qeyd edib:** “Bu tip reaktorlar həm təhlükəsizlik, həm istismar, həm də yanacaq təminatı baxımından daha sınaqdan keçmiş sistemlərdir”. Alim hesab edir ki, Azərbaycanın enerji gələcəyi yalnız bərpa olunan mənbələrə deyil, həm də nüvə energetikasına əsaslanan balanslı model üzərində qurulmalıdır. Onun qənaətinə görə, bu sahə həm iqtisadi, həm elmi, həm də strateji baxımdan ölkə üçün yeni inkişaf mərhələsi aça bilər.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**

## Hökumət benzin və dizel yanacağına niyə kvota tətbiq edib?




**Azərbaycan hökuməti Dövlət Neft Şirkətinə (SOCAR) 11 ay ərzində (01.05.2026 - 31.03.2027) ölkəyə Aİ-92 benzini və dizel yanacağının idxalı üçün kvota tətbiq edib. Nazirlər Kabinetinin 27 aprel 2026-cı il tarixli 118 N-li qərarında bildirilir ki, sözügedən müddətdə SOCAR-ın idxal edəcəyi Ai-92 markalı benzin 205 min ton, dizel yanacağının həcmi isə 201 min ton həddini aşmamalıdır.**

Neft Araşdırmaları Mərkəzinin rəhbəri İlham Şaban Nazirlər Kabinetinin bu qərarını şərh edib. Onun sözlərinə görə, Dövlət Statistika Komitəsinin hesabatlarına əsasən, Azərbaycan Aİ-92 markalı benzinin idxalının ən yüksək həcmini 2024-cü ildə həyata keçirib. Həmin il 262,4 min ton Aİ-92 markalı avtomobil benzininin idxalına 225,85 milyon dollar ödəniş həyata keçirilib.

Ekspert xatırladır ki, hökumət ölkə daxilində dövlət tərəfindən tənzimlənən avtomobil yanacağı qiymətlərinin sabitliyinin təmin edilməsi və daxili bazarın fasiləsiz yanacaqla təchizatının qorunması məqsədilə 11 ay ərzində ölkəyə idxal ediləcək yanacağa simvolik aksiz vergisi - hər tonu üçün 1 manat tətbiq edib.

Bəs hökumət niyə belə qərar verib? İlham Şaban deyir ki, əslində belə qərarların verilməsi yenilik deyil: “Hökumət o zaman bu cür addımlar atır ki, yanacaq istehsal edən Bakı Neft Emalı Zavodu illik cari təmirə və modernizasiya işləri məqsədilə fəaliyyətinə müvəqqəti fasilə verir. Adətən bu müddət 1-2 ay çəkir. Ona görə də hökumət əvvəllər ölkənin daxili yanacaq tələbatının ödənilməsi və qiymətlərin stabilliyini saxlamaq üçün idxal vergisini 3-4 ay müddətinə tətbiq edirdi”.

Bəs indi niyə bu az qala 1 ilə yaxın müddətə tətbiq edilir? Ekspert hesab edir ki, məntiqlə bu, zavodda aparılacaq təmir və modernizasiya işləri dövrünü və NEZ işə düşdükdən sonra mövcud istehsal gücünü yığana qədər olan dövrü əhatə etməlidir. “Kənar müşahidə ilə bu qənaətə gəlmək olar. Amma daha dəqiq və dolğun cavabı təbii ki, hökumətin özü, ya da zavodun sahibi - SOCAR verə bilər”, - o vurğulayıb.



David Barnea

## İranın strateji və taktiki kəşfiyyat məlumatlarını o əldə edib

**İsrailin xarici kəşfiyyat xidməti (Mossad) İranın strateji və taktiki kəşfiyyat məlumatlarını əldə edib. "The Times of Israel"in xəbərinə görə, bunu "Mossad"ın direktoru David Barnea 2025-ci ildə keçirilən əməliyyatlarla bağlı tədbirdəki çıxışında deyib.**

O, Mossadın daha effektiv və daha çox hücum mövqeyindən çıxış edən təşkilata çevrildiyini bildirib. "Biz hədəf ölkələrdə yeni və innovativ əməliyyat qabiliyyətləri nümayiş etdirmişik", - Barnea qeyd edib.

Mossad direktoru təşkilatın İranla müharibədə İsrail ordusuna yüksək rütbəli rəsmilərlə bağlı məlumat ötürdüyünü və İsrailin İran üzərində hava üstünlüyünü təmin etməsinə kömək etdiyini bəyan edib.

O, təhdidlərin hələ də davam etdiyi barədə də xəbərdarlıq edib və yeni bir təhdidin hiss olunduğu zaman hərəkətə keçəcəklərini vurğulayıb.



## Zalujnı müharibənin tezliklə bitəcəyinə şübhə edir

**Ukraynanın Böyük Britaniyadakı səfiri, Ukrayna Silahlı Qüvvələrinin keçmiş baş komandanı Valeri Zalujnı hesab edir ki, müharibənin bitəcəyi dəqiq tarixi proqnozlaşdırmaq mümkün deyil.**

"AzPolitika" xəbər verir ki, Ukrayna mediası Zalujnının tələbələr qarşısındakı çıxışından bəzi tezisləri paylaşıb.

Onun fikrincə, müharibənin bitmə tarixini proqnozlaşdırmaq bir çox amillərə görə mümkünsüzdür və onu bitirmək üçün strategiya hazırlanmalıdır.

Zalujnı ukraynalıları proqnozlara etibar etməməyə çağırıb və gələcək üçün müstəqil planlaşdırmanın vacibliyini vurğulayıb. "Mən tam realistəm və müharibə haqqında bir qədər bilirəm. Xüsusilə Ukraynadakı kimi müharibənin sonunu proqnozlaşdırmaq mümkün deyil. Biz yalnız ona təsir edən amilləri görə bilərik", - deyə o qeyd edib.

Zalujnının sözlərinə görə, Ukrayna proqnozlar vermək əvəzinə, vacib daxili suallara cavab verməlidir: öz resurslarının limitlərini dəqiq müəyyənləşdirməli və müharibəni süni deyil, real nəticə ilə başa vurmağa imkan verəcək bir strategiya hazırlamalıdır. O, müəyyən məqsədi olmayan hər hansı bir hərəkətin yalnız iqtisadi tükənməyə və heç bir real nəticə olmadan insan itkisinə səbəb olduğunu qeyd edib.

Səfir həmçinin deyib ki, gözlənilməz bir hadisə nəzəri olaraq müharibənin gedişatını dəyişdirə bilsə də, ölkə istənilən gedişata hazır olmalı və gələcək üçün müstəqil şəkildə plan qurmalıdır: "Heç kimə inanmayın! Çünki bu müharibə bir çox amillərdən asılıdır. Hər şey özümüzün nə qədər müharibə aparmaq istəyimizdən və bunu reallaşdırmağımızdan asılı olacaq".

# Tehranın Azərbaycanla sərhəddən yeni mesajı

### İran üçün ölkəmizlə sərhəd daha "gərginlik zonası" deyil, əksinə, sabit və idarəolunan tranzit xətti kimi qəbul olunur

**İran ABŞ və İsraillə hərbi əməliyyatlar fonunda Azərbaycanla sərhəddə heç bir gərginlik olmamasından məmnunluq duyur. Bunu İranın sənaye, mədən və ticarət nazirinin müavini, həmçinin Gömrük Administrasiyasının rəhbəri Forud Əsgəri Biləsuvar sərhəd gömrük məntəqəsinin fəaliyyəti ilə tanış olduqdan sonra bildirib.**




Onun sözlərinə görə, İran və Azərbaycan arasındakı sərhəddə qarşılıqlı fəaliyyət yüksək səviyyədə qalır. Hərbi əməliyyatlar dövründə sərhəd-keçid məntəqələrində heç bir problem qeydə alınmayıb. Əsgəri qeyd edib ki, Biləsuvar sərhəd-keçid məntəqəsində ixrac, idxal və tranzit əməliyyatlarının həcminin artırılması planlaşdırılır. Gözlənilir ki, bu addımlar Ərdəbil-Biləsuvar azad ticarət zonasını ölkənin ən fəal zonalarından birinə çevirəcək.

ABŞ və İsraillə İran arasında davam edən gərginliklərin fonunda regionun müxtəlif nöqtələrində risklərin artdığı müşahidə olunur. Lakin İran tərəfi Azərbaycanla sərhəddə hər hansı insidentin baş vermədiyini xüsusi vurğulayır. Bu, təkcə texniki idarəetmə uğuru kimi deyil, həm də tərəflər arasında praqmatik və işlək kommunikasiya xəttinin mövcudluğu kimi qiymətləndirilə bilər.

Analitik baxımdan bu vəziyyət göstərir ki, İran üçün Azərbaycan sərhədi "gərginlik zonası" deyil, əksinə, sabit və idarəolunan tranzit xətti kimi qəbul olunur.

Ümumilikdə, Biləsuvar sərhəd məntəqəsi ətrafında aparılan siyasət yalnız iqtisadi modernizasiya layihəsi kimi yox, həm də İranın regionda sabitlik və əməkdaşlıq mesajı kimi oxuna bilər. Əsgərinin açıqlamalarında diqqət çəkən digər məqam Biləsuvarın Mərkəzi Asiya ilə ticarət axınlarında potensial roludur. Bu, İranın sərhəd strategiyasını yalnız ikitərəfli (İran-Azərbaycan) çərçivədə deyil, daha geniş regional logistika şəbəkəsi kontekstində də düşündüyünü göstərir.

Ərdəbil-Biləsuvar azad ticarət zonasının aktivləşdirilməsi planı da bu yanaşmanı gücləndirir. Belə zonalar adətən həm ticarət dövriyyəsini artırmaq, həm də regional iqtisadi asılılıqları dərinləşdirmək üçün istifadə olunur.

"Yaxın Şərqdə gərginliyin artması, xüsusilə İranla ABŞ-İsrail xətti arasında hərbi qarşıdurmanın müharibəyə çevrilə bilməsi ehtimalını gücləndirən proseslər regionu getdikcə daha həssas və riskli mərhələyə sürükləyir. Belə bir mürəkkəb geosiyasi fon şəraitində region dövlətlərinin davranış modeli və prioritetləri xüsusi diqqət mərkəzinə çevrilir. Məhz bu kontekstdə qeyd etmək lazımdır ki, Azərbaycan uzun illərdir həm regional, həm də qlobal səviyyədə sabitliyin və təhlükəsizliyin qorunmasına yönəlmiş ardıcıl siyasət yürüdür".

Bu sözləri "Yeni Müsavat"a **Milli Məclisin deputatı Vüqar İskəndərov** deyib. O bildirib ki, rəsmi Bakı prinsipial mövqeyinə sadiq qalaraq öz ərazisinin üçüncü tərəflərə qarşı istifadə olunmasına heç vaxt şərait yaratmayıb və bu xətt dəyişməz olaraq qalır: "Baş verən son hadisələr göstərir ki, bu yanaşma sadəcə siyasi bəyanat deyil, praktik siyasətin əsas elementidir. Diqqətçəkən məqamlardan biri də odur ki, İran tərəfi artıq bu reallığı açıq şəkildə qəbul edir. İranın sənaye, mədən və ticarət nazirinin müavini, eyni zamanda Gömrük Administrasiyasının rəhbəri Forud Əsgərinin Azərbaycanla sərhəddə sabitliyin qorunduğunu və heç bir insidentin qeydə alınmadığını vurğulaması bunun aydın göstəricisidir".

**V.İskəndərovun sözlərinə görə, burada əsas məsələ İranın Azərbaycan istiqamətinə yanaşmasında özünü göstərir:** "Tehran bu xətti risk zonası kimi deyil, daha çox etibarlı və funksional tranzit marşrutu kimi dəyərləndirir. Bu isə faktiki olaraq regionda iqtisadi və logistika baxımından alternativlərin qorunmasına xidmət edir. Eyni zamanda belə bir yanaşma İranın mövcud geosiyasi təzyiqlər fonunda iqtisadi əlaqələri tam itirməmək niyyətindən xəbər verir".

"Ümumilikdə, ortaya çıxan mənzərə onu göstərir ki, burada söhbət yalnız texniki koordinasiyadan getmir. Əksinə, qarşılıqlı maraqlara əsaslanan və praqmatik hesablamalar üzərində qurulan münasibət modeli formalaşır. Bu model sübut edir ki, hətta genişmiqyaslı gərginlik fonunda belə, müəyyən istiqamətlər üzrə rasional əməkdaşlıq qorunub saxlanıla və daha da inkişaf etdirilə bilər" - deyə o vurğulayıb.

**ƏHD Partiyasının baş katibi, politoloq Niyaməddin Orduxanlının sözlərinə görə, Azərbaycan daim cənub qonşusu ilə yaxın əlaqələr qurmaqda maraqlı olub:** "Çox yaxşı haldır. Çünki artıq İran rəsmiləri başa düşməyə başlayıblar ki, İran-Azərbaycan sərhədində heç bir gərginlik yoxdur və Azərbaycandan İrana hər hansı bir təhlükə ola bilməz. 60 gündən artıqdır ki, İran-ABŞ və İsrail hərbi əməliyyatları baş verib. Azərbaycan ilk gündən bəyan etdi ki, biz İrana hərbi müdaxiləyə, raketlərlə vurulmasına hava xəttimizdən istifadə olunmasına və baş vermiş münaqişəyə hər hansı bir dəstək verməyəcəyik. Azərbaycan hər zaman İranla ikitərəfli, normal, qarşılıqlı səmimi əlaqələrin inkişaf etdirilməsində maraqlı olub. Hər zaman mədəni, dostluq, iqtisadi, siyasi, diplomatik əlaqələrin möhkəmlənməsində maraqlı olmuşuq. İranın ərazi bütövlüyünü tanımışıq. Eyni dinin daşıyıcılarıyıq. Tarixi əlaqələrimiz mövcuddur. 40 milyondan artıq Azərbaycan türkü İran vətəndaşıdır. Bütün bunlar çox mühüm amillərdir. Bu gün Azərbaycanla münasibətlərinin normal və yaxşı olmasına daha çox İranın ehtiyacı var. Müharibə başlanandan bəlkə də Azərbaycan yeganə ölkədir ki, İrana dəfələrlə humanitar yardım göstərib və bu müharibənin dayanmasını və danışıqlar masasına keçməsini arzu edir. Biz günahsız insanların həyatını itirməməsini arzu edirik. Hörmüz boğazında yaranmış vəziyyətlə bağlı artıq hər kəsə bəllidir ki, ABŞ İranı blokadaya alıb. Uzun illər sanksiya altında boğulan İran üçün bu vəziyyətin həddindən artıq ağır olacağını düşünürəm. İranda sosial vəziyyətin və böhranın qaçılmaz olduğu gözlənilir. Aclıq və ağır şəraitin baş verməsi qaçılmaz olacaq. İran rəsmiləri özləri bəyan edirlər ki, müharibədən sonra körfəz ölkələri ilə münasibətlərin fonunda Azərbaycanla sərhəddə hər hansı bir insidenti baş vermir. Əlbəttə ki, bu təkcə texniki idarəetmə deyil, həmçinin də işlək kommunikasiya xəttinin mövcudluğu kimi qəbul olunur. İran-Azərbaycan ticari əlaqələri, qeyd olunduğu kimi, Mərkəzi Asiya ilə ticarət axınında mühüm rol oynaya bilər. Və bundan bir çox ölkələr iqtisadi səmərəliliyini artıra bilər. Azad ticari zonanın yaranması regional iqtisadi münasibətləri dərinləşdirəcək faktordur. Azərbaycan hər zaman qonşuları ilə bütün əməkdaşlığın tərəfdarı və etibarlı dövləti kimi çıxış edib".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# İranla danışan yəhudi kürəkən:



# Kuşnerin həyat hekayəsi...

**1941-ci ildə Almaniyanın SSRİ-yə hücumu zamanı iki həftə ərzində demək olar ki, Belarus işğal edilir. İlk olaraq paytaxt Minski, daha sonra Novoqrudoku ələ keçirilir. Şəhərdə yaşayan bütün yəhudilər sarı ulduzlu nişanlanmış geyindirilir. Almanlar hüquqşünas və digər intellektual peşə sahibi olan yəhudiləri elə şəhərin mərkəzindəcə güllələyirlər. Güllələmədən sonra şəhərin mərkəzindəki qanı yumaq üçün 50 nəfərdən ibarət təmizləyici dəstə hazırlanır və Raisa Kuşner də bu dəstənin içərisində yer alır. Qalanları əsir düşərgəsinə yerləşdirilir...**

### Yəhudilərin tökülən qanını silmək

Siyasətdə təsadüflər az olur, bəlkə də heç olmur. Xüsusən də mövzu yəhudilərlə bağlıdırsa, o zaman buna heç inanmaq lazım deyil. Gəl ki, bir də siyasətçi ilə qohum olursansa, bu artıq heç təsadüfi münasibətlərdən yaranmır. Çünki belə nikahların bağlanmasının arxasında hər zaman siyasi və merkantil maraqlar olur. Birləşmiş Ştatların lideri Donald Trampın qızı İvanka ilə evlənən Cerald Kuşner kimi... Bəli, o Kuşner ki, yəhudidir, nasistlərin güllələdiyi yəhudilərin küçədə qanını təmizləməkdə iştirak edən Raisa Kuşnerin nəvəsidir. İndi nəvə Kuşner təkcə Ağ Ev liderinin kürəkəni deyil, həm də onun istər Rusiya, istərsə İranla danışıqlara göndərdiyi adamıdır. Qəribədir, İsraillə münaqişə vəziyyətində olan İranla müzakirələrə yəhudi göndərilir. Və bu faktın özü Trampın yəhudilərlə nə qədər yaxın olduğunu bir daha təsdiqləyir - Netanyahu ilə dostluq, Yerusəlimi İsrail paytaxtı elan etmək, kürəkən də yəhudi...

Bəli, 1943-cü ilin ortalarında Rayanın anası və bacılarından biri Belarusdakı həmin əsir düşərgəsində dünyasını dəyişir. Raya atası, qardaşı və ikinci bacısı ilə sağ qalır. O zaman 500-ə yaxın əsir nasistlərdən qaçmaq qərarına gəlir və bunun üçün əlləri ilə tunel qazırlar. Qaçış uğurla alınsa da, Raya Kuşnerin qardaşı ölür. Sağ qalan Kuşnerlər Balski qardaşlarının partizan dəstəsinə qoşulurlar. Raya 1945-ci ildə müharibədən sonra partizan dəstəsində tanış olduğu dülgər İosif Berkoviçə ərə gedir. Bundan sonra onlar qeyri-leqal yolla İtaliyaya gəlir və orada qaçqın düşərgəsinə yerləşərək ABŞ-ya viza alırlar.

İosif (artıq o, adını dəyişərək Cozef qoyur) Raisa ilə Nyu-Yorkda Bruklində yerləşirlər. İosif Nyu-Cersidə tikintidə işləməyə başlayır. Burada onların işləri çox uğurlu alınır. İosif taunhaus evlər tikərək, onları icarəyə verir. Kuşnerlər qısa zaman ərzində lazımi səviyyədə gəlir əldə edirlər. Nyu-Yorkda ailənin Mürrey və Çarlz adlı uşaqları dünyaya gəlir. Ataları İosif dünyasını dəyişdikdən sonra ailədə məsuliyyəti Çarlz öz üzərinə götürür. Artıq bu zaman Kuşnerlər ailəsinin 20 min kvadratmetrlik mənzili, banklarda payları və hotel biznesi var idi.

### Kuşnerlər necə varlandı?

Kuşnerlər ailəsi əldə etdiyi gəlirlərdən yəhudi təhsil müəssisələrinin tikintisini maliyyələşdirir, bununla belə, imkansızlara yardım edirlər. Raisa Kuşner özü isə ABŞ-dəki Xolokost Muzeyinin ilk yaradıcılarından biri hesab olunur.

Nəhayət, 1981-ci ildə Çarlzın oğlu Cared dünyaya gəlir. Cared mehriban və dini bir ailədə böyüyərək, tərbiyə alır. Caredin xalaları, bibiləri, dayı və əmiləri, qohumları mütəmadi olaraq onlarla şabat (şənbə) yeməklərinə gəlirlərdi.

İş adamı olan Çarlz Kuşneri siyasət özünə cəlb edir. Və qısa zamanda Çarlz Demokratlar Partiyasının əsas donorlarından birinə çevrilir. Hətta Hillari Klinton dəfələrlə onun qonağı olur.

Çarlz Kuşnerin maliyyə dəstəyi ilə Cim Makqrivi Nyu-Cersinin qubernatoru seçilir. Cim Makqrivi qubernator seçildikdən sonra Kuşnerə borclu qalmır. Nyu-York və Nyu-Cersinin limanları idarəsinin rəhbərliyinə namizədliyini irəli sürür. Bu isə Çarlz Kuşnerə 2001-ci il 11 sentyabr zamanı Nyu-Yorkda terror nəticəsində dağıdılan "Əkizlər" Dünya Ticarət Mərkəzinin yenidən bərpası ilə bağlı möhtəşəm müqavilə imzalamaq imkanı yaradır. Onun bu perspektivi ailədə heç də birmənalı qarşılanmır və qardaşı bunun əleyhinə çıxır. Kuşnerlər ailəsində baş verən bu mübahisə və Mürreyin açıqlamaları Nyu-Cersinin ambisiyalı prokuroru Krisi Kristin maraqlarını çəkir və prokuror Çarlza qarşı ittiham irəli sürür. Nəticədə Çarlz limanlar idarəsinə rəhbərlikdən namizədliyini geri götürməli olur.

Prokurorluq Çarlza qarşı 18 epizod üzrə vergidən yayınma, istintaqa təsir etmə, qeyri-qanuni olaraq siyasi təşkilatları maliyyələşdirməklə bağlı cinayət işi qaldırır. 2005-ci ildə Çarlz iki il müddətinə həbs olunur. Kristi bununla da Kuşnerlər ailəsinin biznesinə dağıdıcı zərbə vurmuş olur. Çarlz həbsdə olan zaman oğlu Cared Harvard Universitetini bitirir. Cared ailəsinin itirdiyi reputasiyanı və milyonları bərpa etməyə qərar verir. Bu məqsədlə o, media layihələrinə start verir və təhsilli insanlar arasında populyar olan "The New York Observer" qəzetinə sahib olur.

### Sınaqoqda toy və Trampın yəhudi qızı

Çarlz isə 1,5 il sonra həbsdən çıxır. Ancaq o, şirkətə rəhbərlik etmək istəmir və bundan imtina edir. Çarlz şirkəti oğlu Caredə təhvil verir. Çünki təmiz adla kredit almaq daha asan olduğunu yaxşı bilir. Ata-oğul şirkətdə çox gözəl tandem yarada bilirlər. Məhz bunun nəticəsində yenidən uğurlar bir-birini əvəz etməyə başlayır. Nəticədə Nyu-Yorkdakı Bruklin məhəlləsində ailənin bir neçə göydələni ucalır. Kuşnerlər ailəsinə məxsus şirkətin əməkdaşlarının sayı 70-dən 700-dək artır. Bu uğurlar fonunda Çarlzın məhkumluğu unudulur.

2007-ci ildə işgüzar naharda Cared tikinti maqnatı Donald Trampın qızı İvanka ilə tanış olur. Bu tanışlıqdan iki il sonra Kuşnerlər ailəsinin razılığı ilə İvanka sinaqoqda iudaizm dinini qəbul edir və onlar toy edirlər. 2015-ci ilin iyununda Donald Tramp prezident seçkilərində iştirak etmək barədə qərar verən zaman Cared tərəddüd etmədən ona yardımçı olacağını bəyan edir. O, bunu qohumluq vəzifəsi bilir. Onun siyasi proseslərə marağı ailədən gələn bir ənənə hesab olunur. Baxmayaraq ki, Cared Demokratları dəstəkləyən bir ailədə böyüyüb.

2015-ci ilin 9 noyabrında İllinoys ştatında Sprinqfild şəhərindəki ən böyük konfrans zalında böyük siyasətin nə olduğunu anlayır. O zaman Trampın ətrafında 10 mindən çox tərəfdaşı olur. O, böyük siyasətdə bir çox məsələlərlə maraqlanmağa başlayır. Kuşner seçki ərəfəsində Trampla bütün ölkəni gəzərək ABŞ reallığını görməyə başlayır. O, sadə amerikalının nəyə ehtiyac duyduğunu öyrənir. Seçki kampaniyası dövrü isə qayınatasına yaxından yardım edir.

### Qələbədən sonra kürəkənin qisası

Trampın qələbəsindən sonra Cared atası Çarlzı dəmir barmaqlıqlar arxasına göndərən Kris Kristidən qisas almağı düşünür. Və bunun nəticəsi olaraq Cared Kris Kristiyə Tramp administrasiyasında vəzifə almağa imkan vermir. Baxmayaraq ki, Kris Kristi Trampın yaxın silahdaşlarından olub. Tramp ona administrasiyada vəzifə təklif etsə də, Cared buna imkan vermir.

Qeyd edək ki, Cared hazırda ən vacib məsələləri həll edən kadrlardan biri hesab olunur. Kuşner Səudiyyə Ərəbistanı, Çin, İsrail, Kanada və Meksika ilə əlaqələrə cavabdehlik daşıyır. Səudiyyə Ərəbistanı ilə ABŞ arasındakı məşhur silah müqaviləsi onun sayəsində imzalanıb. Ümumiyyətlə, öz qayınatasının baş məsləhətçisi təyin olunduqdan sonra bu yəhudi ailəsinin Ağ Evə təsir rıçaqları daha da artıb. Kuşner ailəsinin şəxsi sərvəti 1,8 milyard dollar təşkil edir. Bu sərvətin 1,15 milyard dolları daşınmaz əmlakın payına düşür. Onların 6 ştatda 1,2 milyon kvadrat metr yaşayış, kommersiya və ticarət əmlakı mövcuddur.

Cared eyni zamanda ortodoksal yəhudidir. "New York Observer" qəzetində dərc olunan redaksiya məqaləsində o, Trampın irqçi olmadığını qeyd edib. Tramp üçün Kuşner ən etibarlı sirdaşlarındandır və etibar edə biləcəyi biridir. O, həmçinin digər ölkələrlə danışıqlarda özünü sübut edib. Donald Trampın Kuşneri Vitkoffla birlikdə Vladimir Putinlə danışıqlara göndərməsi onun tez bir zamanda nəticə əldə etməyə can atdığını göstərir. Siyasətdə və həyatda isə qayınata ilə kürəkənin yola getməsi azsaylı nümunələrdəndir. Görək, Trampla Kuşner hara qədər birgə olacaqlar...

❑ **Emil SALAMOĞLU,**
**"Yeni Müsavat"ın redaktoru**

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026



# Sel kimi pul

Zamin HACI
zaminhaci@gmail.com

**Öncə zəhmətkeşlərimizi 28 aprel - Azərbaycanda sovet hökumətinin qurulmasının ildönümü münasibətilə təbrik edirəm, onlara qardaş kommunist ailəsində yeni zəfərlər diləyirəm.**

Bunu qara yumor kimi qiymətləndirməyin, ciddiyəm. Axı bizdə 28 apreldən 28 maya keçid əslində görünüş baxımından baş verib, mahiyyətcə böyük dəyişiklik yoxdur. Yalnız, el dilində desək, “o vaxt pul var idi, heç zad yox idi, indi hər şey var, almağa pul yoxdur”.

Bu tema, ümumiyyətlə, sağlamlığa ziyanlı temadır, ona görə başını bağlayıb keçirəm başqa mövzulara, yoxsa əziz oxucularımız bu minalanmış sahədən məni xilas etməyə ANAMA ekspertlərinin çağırılmasını istəməzlər. Gümanım belədir, bəlkə onlar “daha kəskin yaz, dağ kimi durmuşuq arxanda” deyirlər, ancaq mənim, türkün sözü, tırka sözünə gedən vaxtım ötüb, üzrlü sayın.

Dağ kimi durmaq demişkən, hökumət bir daha xalqın qayğısına qaldığını isbat elədi, sel-sudan, yağışdan ziyan çəkənlərə yardım proqramı açıqlandı. Sevindirici haldır, biz ağa ağ, qaraya qara deməliyik, müsbət şeyləri görməliyik, Avropanın yaxşısını... Nəsə, bu da başqa söhbətdir, sözümün canı odur ki, yağış işi üçün maliyyə ayrılmışdır, özü də babat puldur - təxminən 85 milyon manat. Həmin pulla divarlar, yollar, bəndlər bərkidiləcək, sel yuyan evlər təzədən tikiləcək. Yeni proqramda, sənəddə camaatın fərdi evlərinin ayrıca nəzərdə tutulması alqışa layiqdir, çünki mən ötən yazılarımdan birində də bunu xüsusi vurğulamışdım ki, əgər dövləti xalq qurubsa, dövlət ona çətin anında yardım etməyə borcludur. Xalqın pulu xalq üçün sərf edilirsə, nə gözəl...

Ancaq ötən illərin acı təcrübələrinə əsasən, bu işdən oğurluq etmək istəyən xeyli, üzr istəyirəm, lotu-potu da olacaqdır, əmin ola bilərsiniz. Artıq onlar ağız suyu və mədə şirəsinin ifrazatına başlamışdır - vəsaitin mürəkkəbi qurumamış. Və mən Nostradamus, Vanqa nənə, nə bilim, Falçı Mirağa olmasam da, proqnoz edirəm ki, gələn illərdə Hesablama Palatasının (HP) növbəti hesabatında oxuyacağıq: “Sel üçün ayrılan vəsaitlərin filan milyonu təyinatına uyğun deyil, Behmənkəs müəllimin villasının həyətində Svarovski daşlarından it damı tikilməsinə, o cümlədən, onun övrət və cocuqlarının Maldiv adalarında dayvinqinə sərf edilmişdir”.

Əlbəttə, adətən Vüqar müəllimin (HP sədri) Milli Məclisə və ya Baş Prokurorluğa təqdim elədiyi hesabatlarda bu qədər xırdalıqlar, təfərrüatlar, nüanslar olmur, mən özümdən uydurdum, ancaq aşağı-yuxarı vəziyyət bu cür olur. Misal istəyirsinizsə, buyurun, qəttəzə söhbət var.

HP Kənd Təsərrüfatı Nazirliyi sistemində son 3 ildə külli miqdarda maliyyə pozuntusu aşkar edərək faktları prokurorluğa göndərib. Məsələn, əkin-biçin üçün dotasiyalar yalandan ayrılıb mənimsənilirmiş.

Statkomun göstəriciləri KTN-in rəqəmlərindən 127 min hektara yaxın az çıxıb. 26 min ton pambıq və tütün isə “pripiska” edilib, yəni, kağızda var, ortalıqda yoxdur (bax: 28 aprel söhbətimiz).

Sitat: “Peyk görüntüləri vasitəsilə 117,5 min hektar torpaq sahəsində becərmə işlərinin aparılmadığı təsdiqini tapdığı halda, 19 fermer təsərrüfatına 24,2 milyon manat məbləğində əkin subsidiyası ödənilib”.

Yənı kənd təsərrüfatı məmurlarımız “Nə əkərsən, onu da biçərsən” ata sözümüzü faktiki yalana çıxarıblar, əkilməmiş torpaqdan babat pul “biçiblər”!

Başqa sitat: “4 918,6 ton şəkər çuğunduru, 87 115,3 ton pambıq, 5 898,8 ton tütün istehsal edən 10 hüquqi şəxs (fermer) məhsulu tədarükçüyə verməmdiyi halda dövlət büdcəsindən 14,9 milyon manat vəsait əldə edib”.

Əladır, vallah. Məhsul yox, əkin yox, dotasiyanı dədə malı kimi götürüb yağmalayıblar. Sonra da camaat fikirləşir ki, niyə pomidor bahadır, soğan ağladır, nə bilim, xiyar əyri bitir...

# Azərbaycanın yeni hərbi strategiyası

## Bu strategiyanın əsas istiqamətlərindən biri xarici tərəfdaşlarla hərbi-sənaye əməkdaşlığının genişləndirilməsidir

**Müasir dövrdə hərbi güc təkcə silahların sayı ilə deyil, onların harada və necə istehsal olunması ilə müəyyən edilir. Bu baxımdan Azərbaycan son illərdə müdafiə siyasətində mühüm dönüş edərək idxaldan asılı modeldən qismən istehsal və texnologiya əsaslı yanaşmaya keçid edir. Bu strategiyanın əsas istiqamətlərindən biri isə xarici tərəfdaşlarla hərbi-sənaye əməkdaşlığının genişləndirilməsidir. Azərbaycan Çexiyadan hərbi təyinatlı məhsulların böyük hissəsini satın alır və hazırda konkret layihələr üzrə, xüsusilə birgə istehsalla bağlı danışıqlar aparılır.**

“Yeni Müsavat”ın məlumatına görə, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Çexiyanın baş naziri Andrey Babişlə birgə mətbuata bəyanatında bildirib. Prezident əməkdaşlığın bu sahədə daha da genişlənəcəyinə əminliyini ifadə edərək qeyd edib ki, Azərbaycan öz müdafiə potensialını, o cümlədən yerli istehsal hesabına gücləndirdiyi üçün Çexiya kimi bu sahədə böyük təcrübəyə malik ölkələrlə əməkdaşlıq xüsusi əhəmiyyət daşıyır.

Qeyd edək ki, Ukrayna prezidentinin Qəbələyə səfərində də iki ölkə arasında hərbi-texniki əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb və hər iki dövlət başçısı bu sahədə çox böyük perspektivlər olduğunu vurğulayıb. “Həm Azərbaycanda, həm də Ukraynada hərbi sənaye kompleksi inkişaf edir və burada birgə istehsalla, ümumiyyətlə, sənaye sahəsində birgə istehsalla bağlı çox gözəl imkanlar var”, - deyə Azərbaycan Prezidenti bildirib. Azərbaycan artıq uzun müddətdir ki, sadəcə silah alan ölkədən çıxıb, onları müəyyən dərəcədə istehsal edən və texnologiya transferinə çalışan dövlətə çevrilmək istəyir. Çexiya ilə əməkdaşlıq burada təsadüfi deyil: bu ölkə postsovet məkanına uyğun texnologiyalar, modernizasiya təcrübəsi və NATO standartlarına keçid sahəsində ciddi baza təklif edir.

**“Yeni Müsavat”a açıqlama verən ehtiyatda olan polkovnik Üzeyir Cəfərov maraqlı məqamlara toxundu:** “Son illər Azərbaycan müdafiə sənayesi sahəsində çox böyük uğurlara imza atıb. Hər il dünyanın ayrı-ayrı ölkələrində keçirilən hərbi-texniki sərgilərdə yaxından iştirak edirik. Həm orada təqdim olunan silah-sursat, müdafiə və təhlükəsizliklə bağlı



avadanlıqlarla tanış olur, həm də özünün yerli istehsalı və yaxud da birgə istehsalı olan məhsullarını təqdim edir. Açığını deyim ki, qısa bir müddətdə Azərbaycan hərbi təyinatlı xeyli məhsullar istehsal edib və bu məhsullar həm öz mütəxəssislərimizin ərsəyə gətirdiyi zəhmət hesabına olur, həm də biz ayrı-ayrı ölkələrlə müdafiə təyinatlı, təhlükəsizlik sektoruna aid olan istehsal işlərini həyata keçiririk. Əlbəttə ki, ötən həftə Ukrayna prezidentinin Qəbələyə səfəri zamanı Azərbaycan-Ukrayna hərbi əməkdaşlığı, indi də Çexiya mütəxəssisləri ilə birgə hərbi sənaye kompleksimizin inkişafı məsələsi çox mühüm hadisədir. Yəni ola bilsin ki, kimsə buna elə-belə adi bir səfər və yaxud da ki, müzakirə kimi baxır. Amma mən elə hesab etmirəm. Çünki Ukrayna, ümumiyyətlə, həm də keçmiş SSRİ dönəmində həddindən artıq böyük potensiala malik olan bir mütəxəssislər respublikası idi, indi isə müstəqil ölkədir. Ukraynanın hərbi sənaye kompleksi ilə bizim hərbi sənaye kompleksimizin əməkdaşlığı əlavə imkanlar yaradır. Yeri gəlmişkən, həmin görüşdə bizim müdafiə sənayesi naziri, o cümlədən Azərbaycan Dövlət Sərhəd Xidmətinin rəhbərliyi də iştirak edirdi. Demək istəyirəm ki, Azərbaycan əlbəttə ki, öz daxili imkanları hesabına yeni texnologiyalar, yeni silah-sursat istehsal edir, həmin o silah-sursatı həm daxili tələbat üçün, o cümlədən də xaricə ixrac etmək üçün addımlar atır”.

**Ü.Cəfərov əlavə etdi ki, indi NATO üzvü olan Çexiya ilə də əməkdaşlıq hər iki tərəfə böyük faydalar verəcək:** “Mənə gəlir ki, ikitərəfli əməkdaşlıqlar özünü hər mənada doğruldacaq. Ona görə də şəxsən mən bu əməkdaşlığın perspektivini çox yaxşı görürəm. Çünki Çexiyanın istehsal etdiyi təyyarələr var. Biz Çexiyadan fərqli olaraq, təyyarə istehsal etməsək də, yeni texnologiyalar, rabitə, tibb sahəsində, hərbi təhsil sahəsində və digər sahələrdə müəyyən uğurlarımız var. Çexiya artıq 21-ci əsrdə daha çox tələb olunan məhsullara keçib və bu təmaslar da, imzalanan sənədlər də mənə gəlir ki, bu işi bir az daha sürətləndirəcək, hər iki tərəf bundan yalnız fayda götürə biləcək”.

**Ayrı-ayrı ölkələrin Ermənistan üzərindən qurduqları planlar fonunda bu hərbi əməkdaşlıqların ölkəmizə hansı üstünlüklər vəd etməsinə gəldikdə, hərbi ekspert diqqəti Ermənistandakı proseslərə yönəltdi:** “Ümid edirəm ki, iyunda Ermənistandakı seçkilərdə erməni xalqı doğru-düzgün qərar verəcək və o qərara əsasən də ermənilər revanşistlərə şans tanımayacaqlar ki, onlar yenidən erməni xalqını avantüraya və yaxud da müharibəyə sürükləsinlər. Bu, köçəryanlar, sərkisyanlar, karapetyanlar və digərləri hamısı avantüristlərdir və mən ümid edirəm ki, erməni cəmiyyəti onlara səs verməyəcək, Nikol Paşinyanla başladığımız işi sona çatdıracağıq. Gələn ay Ermənistanda bir hərbi parad olacaq. Düzdür, orada yeni texnika və texnologiyaların nümayişi həyata keçiriləcək. Bu da Paşinyanın daha çox seçkiyə hesablanmış addımıdır. Ona görə mən düşünürəm ki, Ermənistan artıq Azərbaycanla, Türkiyə ilə yaxınlaşmasının dadını hiss edir. Həm daxili bazarında yanacaq-sürtkü materialları, o cümlədən Ermənistan əhalisinin buğda ilə təminatı, iqtisadi problemlərinin həllinin nəticələrini görür. Ona görə də hesab edirəm ki, Qəbələdə son günlər baş vermiş tarixi hadisələr yaxın aylarda öz bəhrəsini verəcək. Mən varlığım qədər buna əminəm ki, bundan həm də Azərbaycanın nüfuzu artacaq. Onsuz da Azərbaycan qısa müddətdə postsovet məkanında hərbi sənayesini inkişaf etdirən nadir ölkələrdən biridir. Ona görə mən hesab edirəm ki, həm Ukrayna ilə, həm də Çexiya ilə imzalanmış sənədlər yeni, yeni 21-ci əsrin tələblərinə cavab verəcək yeni texnologiyaların və silah-sursatların ərsəyə gətirilməsinə səbəb olacaq”.

❑ Elşad PAŞASOY,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

# Ermənistan yenə antitürk ittifaqlarında

## Seçkilər ərəfəsində olan Paşinyan hakimiyyəti bir tərəfdən bölgədə sülhdən danışır, o biri tərəfdən isə xarici siyasət kursunda anti-Azərbaycan və anti-Türkiyə xəttini dəstəkləyir

**Ötən həftə saxta soyqırımının 111 illiyinin qeyd edilməsi fonunda Ermənistanda anti-Azərbaycan və anti-Türkiyə mövqeyi özünü bir daha göstərdi. Belə ki, aprelin 22-də Kiprdə ikitərəfli (Ermənistan-Kipr) və üçtərəfli formatlarda (Ermənistan-Yunanıstan və Kipr) müdafiə məsləhətləşmələri keçirildi. "Xronika Kavkaza"nın xəbərində deyilirdi ki, görüşlərdən sonra tərəflər illik hərbi əməkdaşlıq proqramlarını imzalayıblar. Nümayəndə heyətləri müdafiə islahatlarını və regional təhlükəsizliyi müzakirə ediblər və əməkdaşlığı daha da genişləndirmək barədə razılığa gəliblər.**

Maraqlıdır ki, həmin ərəfədə İsrail də 2026-cı il üçün Yunanıstan və Kiprlə Türkiyəyə qarşı yönəlmiş birgə hərbi əməkdaşlıq proqramı imzalayıb. Sözügedən proqram Aralıq dənizində Türkiyəyə qarşı tədbirlərin əlaqələndirilməsi məqsədilə hazırlanıb. Məlumatlarda qeyd olunub ki, razılaşma üç tərəf arasında birgə hərbi təlimlərin keçirilməsini, xüsusi təyinatlı qüvvələrin hazırlanmasını, yüksək səviyyəli görüşlərin və hərbi məsləhətləşmələrin təşkilini nəzərdə tutur.

Türkiyənin xarici işlər naziri Hakan Fidan Yunanıstan və Kiprə xəbərdarlıq edərək bildirib ki, Türkiyəyə qarşı siyasət aparmaq etibar yaratmır, əksinə, gərginlik və problemlərə səbəb ola bilər. Fidan vurğulayıb ki, Yunanıstan NATO üzvüdür, Kipr isə Avropa İttifaqı dəstəyinə malikdir və İsraillə hərbi əməkdaşlığa ehtiyac yoxdur. Nazir deyib: "Bu ittifaq təkcə Türkiyə üçün deyil, həm də bölgədəki digər müsəlman ölkələri üçün narahatlıq doğurur və onlar bu barədə bizə məlumat verirlər".

Aprelin 24-də Ermənistanda saxta soyqırımı ilə bağlı məşəl aksiyasında isə yenə də Azərbaycan və Türkiyə isterikası özünü göstərdi, bayraqlar nifrətin rəmzi olaraq yandırıldı. "Rusiyalı oliqarx Samvel Karapetyan uzun illər Robert Köçəryan və "Daşnaksütyun"un (Azərbaycan və Türkiyəyə qarşı - red.) təbliğ etdiyi saxta tezisləri sözbəsöz təkrar edir".

Teleqraf.az xəbər verir ki, bunu Ermənistan parlamentindəki hakim "Vətəndaş Müqaviləsi" fraksiyasının rəhbəri Hayk Koncoryan deyib.

Fraksiya rəhbəri Samvel Karapetyanın Robert Köçəryan kimi Ermənistan cəmiyyətini türklərə qarşı nifrətə təşviq etdiyini bildirib. "Kaluqalı oliqarx (Samvel Karapetyan) indi də "Sünikin itirilməsi" və "türkləşmə təhlükəsi" barədə danışır. O, uzun illər Robert Köçəryan və "daşnaklar"ın təkrarladığı eyni saxta tezisləri sözbəsöz təkrar edir. Samvel Karapetyan Robert Köçəryandan daha çox "Robert Köçəryan olmağa çalışır, onun əlindən sönməkdə olan siyasi bədbinliyin çırağını almağa çalışır", - o vurğulayıb.

Hayk Koncoryan Samvel Karapetyanı "ideoloji cəhətdən iflas etmiş dollar milyarderi" adlandırıb və qeyd edib ki, bu, əsl dərslik nümunəsidir.

Göründüyü kimi, seçkilər ərəfəsində olan Ermənistan hakimiyyəti bir tərəfdən bölgədə sülhdən danışır, o biri tərəfdən isə Türkiyə ilə sərhədi açmaq niyyətindən danışır, o biri tərəfdən isə xarici siyasət kursunda anti-Azərbaycan və anti-Türkiyə xəttini dəstəkləyir. Kipr və Yunanıstanla keçirilən müdafiə məsləhətləşmələri və imzalanan hərbi əməkdaşlıq proqramları sadəcə texniki sənədlər deyil - bu, daha geniş geosiyasi xəttin tərkib hissəsidir. Aralıq dənizində Türkiyəyə qarşı formalaşan bloklaşma cəhdləri artıq açıq müstəviyə keçib və İrəvan bu prosesdə özünə yer tapmağa çalışır.

Bu yanaşma Ermənistanın ənənəvi təhlükəsizlik arxitekturasından uzaqlaşaraq yeni müttəfiqlər axtarışına çıxdığını göstərir. Lakin burada əsas sual yaranır: İrəvan həqiqətən öz təhlükəsizliyini möhkəmləndirir, yoxsa daha böyük qarşıdurmaların bir hissəsinə çevrilir? Son günlər antitürk isterikasının əsl səbəbi nədir?

**Siyasi şərhçi Azər Həsrət "Yeni Müsavat"a bildirdi ki, Ermənistan öz antitürk mövqeyindən qalmır, fürsət düşdükcə Azərbaycana və Türkiyəyə qarşı addımlar atır:** "Bundan sonra da hər fürsətdə anti-Azərbaycan, anti-Türkiyə addımlarını atacaqlarını gözləyə bilərik. Amma ümumilikdə götürəndə onların addımları bizə heç nə edə bilməyəcək. Bu vaxta qədər belə işbirlikləri ediblər, nəyə nail olublar ki, bundan sonra da nəyəsə nail olsunlar. Onlar ancaq könül bulandırırlar. Bu da təsadüfi deyil. Çünki bir tərəfdə əlbəttə ki, revanşistlər seçkiqabağı mərhələdə Nikol Paşinyanı küncə sıxmağa çalışırlar. Bir tərəfdən isə Rusiya, Fransa, Yunanıstan kimi dövlətlər də öz əməllərindən qalmır. Ermənistan Azərbaycan kimi müstəqil, öz sözünü deyə biləcək bir dövlət deyil ki, qərarları özü versin və əməl etsin. Mütləq kənar qüvvələr Ermənistana bu və ya digər şəkildə diktə etmək üçün fürsətlər tapa bilirlər. O baxımdan Ermənistan məlum gedişləri edir. İrəvanda Azərbaycan və Türkiyə bayraqlarına edilən hörmətsizlik isə aşağılıq kompleksindən qaynaqlanan bir hərəkətdir. Ermənilər bu cür aşağı enməyi seçirlərsə, bu onların seçimidir. Ermənistanda bir isterika var. Bu isterikanın təsiri altında atdıqları addımlar onlara müsbət nə isə gətirməyəcək".

**Siyasi şərhçi deyib ki, Ermənistan onsuz da Türkiyəni özünə düşmən bilir. İndi isə Türkiyəyə qarşı olan xorda özünə yer alması sonda Ermənistanın özünə ziyan vuracaq:** "Ermənistan və qoşulduğu xor Türkiyəyə qarşı ittifaq qururlarsa, Azərbaycanı gözardı etməməlidir. Azərbaycanın İsraillə münasibəti müsbətdir, amma bu o demək deyil ki, Türkiyənin maraq və mənafeləri olan məsələlərdə biz seyrçi qalacağıq, etiraz etməyəcəyik. Ona görə də Azərbaycan faktorunu unutmamalıdırlar. Yunanıstan da unutmamalıdır. Artıq onlar Azərbaycan qazı ilə isinirlər. Azərbaycan Yunanıstana qucaq açır, Afina bunu uyğun şəkildə dəyərləndirməlidir. Türkiyəyə qarşı atılan istənilən addım həm də Azərbaycana qarşı atılan addım kimi qəbul edilir".



"Ermənistan əhalisinin əksəriyyəti sülh və əmin-amanlıq istəyir. Şübhəsiz ki, sülh istəyən tərəf indiki baş nazir Nikol Paşinyana səs verəcək. Paşinyana qarşı dayanan "Qarabağ" klanı isə həmişəki kimi nifrət və kin bəsləyir. Onlar hakimiyyəti ələ keçirmək üçün hər şeyə gedə bilərlər". Bunu da "Reytinq" qəzetinə açıqlamasında **Demokratik İslahatlar Partiyasının (DİP) sədri, deputat Asim Mollazadə** Ermənistanda artan antitürk əhvalından danışarkən deyib. Deputatın iddiasına görə, Rusiyaya bağlı qüvvələr Ermənistanda qeyri-siyasi yollarla hərəkət edərək terror və təxribatlar törədə bilərlər: "Onların siyasi təcrübəsində bu kimi hallar olub. Ancaq erməni əhalisinin əksəriyyəti sülh istəyir. Ümid edək ki, sülh tərəfdarları qalib gələcək".

**Mollazadə qeyd edib ki, Azərbaycan hər zaman bölgədə və qonşu ölkələrdə sabitliyin olmasında maraqlıdır:** "Azərbaycan sülh gündəliyi ilə çıxış edir və Ermənistanda sülh istəyən mütləq əksəriyyətlə bu baxımdan həmfikirdir. Əlbəttə, terroru dəstəkləyən keçmiş klan var. Onlar Qarabağda böyük antiinsani və antibəşəri cinayətlər törədiblər. İndi isə bunu Ermənistanda etməyə cəhd göstərə bilərlər. Əslində onlar siyasi qüvvə deyil, hansısa ölkənin kəşfiyyat və casus şəbəkəsidir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

# Ermənilər bu kəndi Gürcüstana verir?

**Ermənistan hökuməti sərhəd demarkasiyasının bir hissəsi olaraq Cilizə kəndinin Ermənistanın şimalındakı (Gürcüstanla həmsərhəd - red.) Alaverdi icmasına verilməsinin planlaşdırıldığı barədə şayiələri təkzib edib.**

Publika.az xəbər verir ki, əvvəllər bəzi mənbələr Gürcüstanla sərhəd yaxınlığında yerləşən və genişlənmiş Alaverdi icmasının bir hissəsi olan yaşayış məntəqəsinin demarkasiya prosesi zamanı başqa yerə köçürülməsinin nəzərdə tutulduğunu bildirmişdi.

Ermənistan baş nazirinin mətbuat katibi Nazeli Baqdasaryan sosial mediada yazıb: "Ermənistan Respublikasının suveren ərazisinin hər hansı bir hissəsinin başqa bir ölkəyə verilməsi niyyəti, planı və ya razılaşması ilə bağlı hər hansı bir açıqlama, fikir və ya məlumat həqiqətə uyğun gələ bilməz".

Bir gün əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan Milli Təhlükəsizlik Xidmətinin Sərhəd Qoşunlarının yaradılması ilə bağlı tədbirdə bildirib ki, Ermənistan-Azərbaycan sərhədinin delimitasiyası ilə yanaşı, gündəliyə Gürcüstanla delimitasiya prosesi də daxildir və bu barədə gürcü tərəfdaşlarla razılıq əldə edilib.

# Rusiyadan İrəvana mineral su qadağası

**Rusiyanın dövlət markalanma sistemi "Çestnıy znak" Ermənistanın "Cermuk" mineral suyunun partiyasının mağazalarda, o cümlədən onlayn satışını dayandırıb.**

Trend.az bu barədə Rusiya mediasına istinadən xəbər verir.

Perspektiv texnologiyaların inkişafı mərkəzinin (markalanma operatoru) baş direktorunun müavini Revaz Yusupov RBK-ya bildirib ki, dövriyyədə 338 min şüşə olub və yoxlama başa çatana qədər onların dövriyyəsinə icazə verilməyib.

"Rospotrebnadzor"un məktubunda bu addım "Rusiya vətəndaşlarının həyat və sağlamlığına mümkün zərərin qarşısının alınması üçün təcili tədbirlərin görülməsi zərurəti" kimi qeyd olunur. Bildirilir ki, satışların dayandırılmasının səbəbi qurumun icbari tələblərinin pozulması olub.

Satış qadağası yuxarıda qeyd olunan ticarət nişanı altında 17 fevral 2026 - 5 mart 2026-cı il tarixlərinə kimi olan müddət ərzində istehsal olunmuş məhsullara şamil olunur.

# Bakıda əhalinin 500 min artacağı proqnozu

## Ekspertlər hesab edirlər ki, bu artım paytaxtda mövcud olan problemləri daha da dərinləşdirəcək

**17-22 may tarixlərində Azərbaycan şəhərsalma sahəsində ən böyük beynəlxalq tədbirlərdən birinə - BMT-Habitat (Birləşmiş Millətlər Təşkilatının İnsan Məskunlaşmaları Proqramı) tərəfindən Azərbaycan hökuməti ilə birgə təşkil edilən Dünya Şəhər Forumunun 13-cü sessiyasına ev sahibliyi edəcək.**



Forum ən aktual qlobal problemlərdən birini - mənzil böhranını müzakirə etmək üçün bir platforma yaradacaq. Bildirilir ki, bu gün dünyada 3 milyarddan çox insan mənzil problemləri ilə üzləşir, bir milyarddan çox insan qeyri-rəsmi yaşayış məntəqələrində və gecəqondularda yaşayır və 300 milyondan çox insan evsizdir.

"Yeni Müsavat" xəbər verir ki, Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin şöbə müdiri Çağrı Kərimzadə də paytaxt əhalisi və mənzil tikintisi barədə ilginc açıqlama verib. Onun sözlərinə görə, 2040-cı ilə qədər Bakı əhalisi təxminən 540 min nəfər də artacaq ki, bu da infrastruktur ehtiyaclarının əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Xüsusilə 142 min yaşayış vahidinə əlavə tələbat və təxminən 372 min iş yerinin yaradılması gözlənilir.

Bakıda əhalinin 500 min artacağı proqnozu və bunun mümkün fəsadları barədə mütəxəssislər nə deyir?

Ekspertlər hesab edirlər ki, bu artım Bakıda onsuz da mövcud olan problemləri daha da dərinləşdirəcək. İlk növbədə nəqliyyat yükü artacaq, tıxaclar daha dözülməz həddə çatacaq, ictimai nəqliyyatda sıxlıq yüksələcək. Kommunal xidmətlər, su təchizatı, kanalizasiya və enerji sistemləri üzərində təzyiq dəfələrlə artacaq.

Digər ciddi problem mənzil bazarında yaşana bilər. Tələbatın yüksəlməsi qiymətlərin daha da bahalaşmasına, kirayə bazarında yeni artımlara səbəb ola bilər. Xüsusilə orta və aşağı gəlirli ailələr üçün mənzil əlçatanlığı daha da çətinləşəcək. Urbanistlər ekoloji risklərə də diqqət çəkirlər. Əhalinin artması yaşıllıq sahələrinin azalmasına, havanın çirklənməsinə və şəhərdə həyat keyfiyyətinin aşağı düşməsinə gətirib çıxara bilər. Sosial infrastruktur - məktəblər, uşaq bağçaları, xəstəxanalar da əlavə yük altında qalacaq.

**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli** "Yeni Müsavat"a deyib ki, bu rəqəmlər ciddi bir şəhər planlaşdırması sınağını ortaya qoyur: "540 min nəfərlik artım kiçik bir rəqəm deyil, bu, demək olar ki, orta ölçülü bir Avropa şəhərinin əhalisi Bakıya əlavə olunacaq.

Ən böyük problem infrastrukturun bu tempə yetişə bilməsidir. Bakı artıq nəqliyyat yükü, su təchizatı və kanalizasiya sistemi baxımından gərginlik yaşayır. 142 min yeni yaşayış vahidi tələbatı isə yalnız tikinti məsələsi deyil, bu evlər harada tikiləcək, mövcud şəhər toxumasına necə inteqrasiya ediləcək, kommunal xidmətlər necə genişləndiriləcək, bunların hamısı paralel həll tələb edir.

İkinci ciddi məsələ sosial infrastrukturdur. Məktəblər, xəstəxanalar, uşaq bağçaları, park sahələri, bunlar çox zaman yaşayış tikintisindən geri qalır. Əgər planlaşdırma bu detalları nəzərə almasa, yeni məhəllələr zamanla problemli zonalara çevrilə bilər.

372 min iş yeri proqnozu maraqlıdır, amma sual doğurur. Bu iş yerləri hansı sektorlarda olacaq? Əgər əhali artımı iş yeri artımını üstələyirsə, sosial gərginlik qaçılmazdır. Əksinə, keyfiyyətli iş yerlərinin yaradılması əhali axınını cəlb edə bilər, bu da dövrəni daha da sürətləndirir".

**İqtisadçı deyib ki, gecəqondu riskini də kənarda qoymaq olmaz:** "Dünya Şəhər Forumunun məhz bu problemi müzakirə etməsi təsadüfi deyil. Sürətli şəhərləşmənin idarə olunmadığı hallarda dünyada bu nəticə tez-tez baş verir. Bakıda ətraf rayonlardan miqrasiyanın artması, mənzil qiymətlərinin yüksəlməsi ilə birlikdə qeyri-rəsmi məskunlaşma risklərini artırır. Müsbət tərəfdən baxsaq, bu proqnozun erkən mərhələdə açıqlanması - 2040-ci ilə hələ 15 il var - düzgün planlaşdırma üçün kifayət qədər vaxt deməkdir. Əgər siyasi iradə, şəffaf şəhərsalma sənədləri və vətəndaş iştirakı bir araya gələ bilsə, Bakı bu artımı böhrana deyil, inkişafa çevirə bilər. Dünya Şəhər Forumuna ev sahibliyi etmək isə bu sahədə beynəlxalq təcrübə və tövsiyələrə çıxış baxımından yaxşı bir fürsətdir".

**Sağlam Cəmiyyət Hərəkatının rəhbəri, sosioloq Elçin Bayramlının sözlərinə görə, paytaxt uzun illərdir ki, ölkədaxili miqrasiyanın əsas istiqamətinə çevrilib:** "Regionlarda iş imkanlarının məhdudluğu, təhsil, səhiyyə və digər xidmətlərin əsasən Bakıda cəmləşməsi insanları paytaxta üz tutmağa vadar edir. Əgər bu tendensiya davam edərsə, 2040-cı ilə qədər Bakı əhalisinin daha da artacağı qaçılmaz olacaq. Bu artım isə şəhərin infrastrukturuna çox ciddi yük gətirəcək. Onsuz da hazırda nəqliyyatda, kommunal xidmətlərdə, sosial infrastrukturda böyük gərginlik müşahidə olunur. Əhalinin daha da artması tıxacların, mənzil probleminin, ekoloji yükün və sosial gərginliyin dərinləşməsinə səbəb ola bilər. Əsas problem ondan ibarətdir ki, ölkənin iqtisadi və sosial resurslarının böyük hissəsi Bakıda cəmlənib. Regionların inkişafı eyni tempdə getmədiyi üçün daxili miqrasiya davam edir. Bu isə paytaxtı getdikcə daha yaşanmaz hala gətirir. Problemin həlli yalnız Bakıda yeni binalar tikməkdən keçmir. Əsas çıxış yolu regionlarda iqtisadi fəallığın artırılması, yeni iş yerlərinin yaradılması, təhsil və səhiyyə xidmətlərinin keyfiyyətinin yüksəldilməsidir. İnsanlar yaşadıqları bölgələrdə normal həyat və gələcək görəndə paytaxta axın da azalacaq. Əks halda, yaxın illərdə Bakıda nəqliyyat, mənzil, su, enerji və digər kommunal sahələrdə daha ciddi problemlərlə üzləşə bilərik. Bu məsələ artıq sadəcə şəhərsalma deyil, milli təhlükəsizlik və strateji inkişaf məsələsidir".

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Yenilənmiş MSK ilk seçkiləri nə vaxt keçirəcək?

## Ən yaxın seçkilər 2030-cu ildə olmalıdır, əgər...

**Milli Məclisin aprelin 27-də keçirilən plenar iclasında Mərkəzi Seçki Komissiyasının (MSK) yeni tərkibi müəyyənləşib. Milli Məclis MSK-nın üzvlüyünə Sevinc Abdullayeva, Fuad Cavadov, Bəxşeyiş Əsgərov, Nailə Əsgərova, Tofiq Həsənov, Elçin Xələfov, Ramiz İbrahimov, Rövzət Qasımov, Almas Qəhrəmanlı, Etibar Quliyev, Elmar Məmmədov, İlham Məmmədov, Arifə Muxtarova, Qabil Orucov, Hüseyn Paşayev, Məzahir Pənahov, Mikayıl Rəhimov və İlkin Şahbazov təyin edilib.**



Bununla yanaşı, Aysel Cəlilova, Züriyə Qarayeva və Elnarə Mustafayeva MSK-nın əvəzedici üzvləri kimi təsdiqlənib.

Qeyd edək ki, bu təyinatlar nəticəsində hakim Yeni Azərbaycan Partiyasının (YAP) MSK-dakı iki nümayəndəsi dəyişib. Bunlar Şaitdin Əliyev və Validə Kazımovadır. Yeri gəlmişkən, Milli Məclisdə heç bir siyasi partiyaya mənsub olmayan deputatların təmsilçisi Nizami Nadirxanlı da MSK üzvlüyündən kənarlaşdırılıb.

MSK-nın yeni tərkibdə ilk iclasında Məzahir Pənahov yenidən sədr seçilib. Onun müavini isə yenə Rövzət Qasımov, katibləri Mikayıl Rəhimov və Arifə Muxtarova seçilib.

Mikayıl Rəhimov Milli Məclisdə deputatları azlıq təşkil edən və onun namizədliyini təqdim edən siyasi partiyanı (Ədalət, Hüquq və Demokratiya Partiyası), Arifə Muxtarova isə Milli Məclisdə heç bir siyasi partiyaya mənsub olmayan və onun namizədliyini təqdim edən deputatları təmsil edir. Beləliklə, MSK-nın formalaşma prosesi başa çatıb.

Məlumdur ki, Azərbaycan üzrə seçki təqvimi konstitusiya və qanunvericiliklə əvvəlcədən müəyyən olunur. Mövcud vəziyyətə görə son parlament seçkiləri 2024-cü ilin sentyabrında keçirilib (növbədənkənar). Qanuna görə, növbəti seçkilər normal halda, 2029-cu ildə olmalıdır (əgər yenidən növbədənkənar qərar verilməzsə).

Sonuncu prezident seçkisi də 2024-cü ilin fevralında keçirilib. Prezidentin səlahiyyət müddəti 7 ildir. Buna görə növbəti seçkilər 2031-ci ildə gözlənilir.

Azərbaycanda bələdiyyə seçkiləri adətən 5 ildən bir keçirilir. Son bələdiyyə seçkiləri isə 2025-ci il yanvarın 29-da keçirilib. Qeyd edək ki, Seçki Məcəlləsinin tələblərinə əsasən, bələdiyyə seçkiləri Mərkəzi Seçki Komissiyası tərəfindən təyin edilir. Bununla əlaqədar müvafiq qərar səsvermə gününə azı 60 gün qalmış rəsmi dərc olunur. Digər seçkilərdən fərqli olaraq bələdiyyə seçkilərini Mərkəzi Seçki Komissiyası elan edir. Beləliklə, yeni bələdiyyə seçkiləri də 2030-cu ildə olmalıdır.

**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli "Yeni Müsavat"a bildirdi ki, MSK-nın tərkibində ciddi dəyişiklik edilmədi. 18 MSK üzvü yerinə cəmi üç nəfər yeni şəxsin seçilməsi böyük dəyişiklik və hellediçi amil deyil:** "Demokratik seçkilərin keçirilməsi üçün bir neçə vacib şərt yerinə yetirilməlidir. İlk növbədə seçkilərin ədalətli keçməsi ictimai münasibətdən çox asılıdır. İkincisi, təbii ki, qanunlar buna imkan verməlidir. Üçüncüsü, seçkilərin demokratik keçməsi üçün siyasi iradə tələb olunur. Mərkəzi Seçki Komissiyası bu mürəkkəb prosesdə icraedici strukturdur. Onun seçkilərin təşkilati cəhətdən keçirilməsi ilə bağlı illərdir ki, formalaşmış təcrübəsi var. Doğrudur, Mərkəzi Seçki Komissiyasının fəaliyyəti ilə bağlı cəmiyyətdə birmənalı münasibət yoxdur. Bu da onunla bağlıdır ki, hər kəsin razı qaldığı nəticə əldə etmək mümkün deyil".

**M.Rəhimli qeyd etdi ki, bütün tərəfləri qane edəcək seçkilərin keçirilməsi həm də cəmiyyətin siyasi yetkinliyi ilə bağlıdır:** "Heç vaxt seçkiyə getməyən və səsvermədə iştirak etməyən çoxsaylı vətəndaşlarımız var ki, seçkilərdəki bütün çatışmazlıqları başqalarının üzərinə atırlar. Ancaq seçki elə bir prosesdir ki, burada hər kəsin məsuliyyəti var. MSK-da öz işini layiqincə yerinə yetirən, olduqca savadlı, milləti və dövləti sevən şəxslər var. Onlar həm MSK üzvü, həm də bu qurumda inzibati işçi kimi fəaliyyət göstərirlər. Yeni tərkibə uğurlar arzulayıram. Ümid edirəm ki, onlar cəmiyyətimizin gözləntilərini doğruldacaqlar".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

**Azərbaycan-Türkiyə münasibətləri uzun illərdir "Bir millət, iki dövlət" prinsipi üzərində qurulsa da, son dövrdə bu münasibətlərin mahiyyəti keyfiyyətcə dəyişib. Əgər əvvəllər daha çox siyasi dəstək və qardaşlıq ritorikası ön planda idisə, indi proses açıq şəkildə institusional və çoxşaxəli strateji ittifaq modelinə doğru inkişaf edir. Bu transformasiyanın əsas bazası isə 2021-ci ildə imzalanan Şuşa Bəyannaməsi oldu. Həmin sənəd münasibətləri faktiki olaraq müttəfiqlik səviyyəsinə qaldırdı və yeni mərhələnin hüquqi əsasını formalaşdırdı.**

# Bakı-Ankara strateji ittifaqı - yeni mərhələ niyə ləngiyir?

## Politoloqa görə, yeni mərhələnin reallaşmasını yubanma kimi yox, reallığa adekvat yanaşma kimi qəbul etmək lazımdır



Bu gün artıq iki ölkə arasında hərbi əməkdaşlıq sadəcə formal tərəfdaşlıq çərçivəsini çoxdan geridə qoyub. Birgə hərbi təlimlər, müdafiə sənayesində inteqrasiya və texnologiya mübadiləsi Azərbaycanın təhlükəsizlik arxitekturasında Türkiyənin rolunu daha da artırıb. Xüsusilə pilotsuz uçuş aparatları və müasir hərbi texnologiyaların tətbiqi regionda güc balansını dəyişdirən əsas faktor kimi çıxış edir. Bu mənada, Bakı və Ankara arasında münasibətlər getdikcə klassik müttəfiqlik modelinə yaxınlaşır.

Eyni zamanda iqtisadi sahədə də dərinləşmə müşahidə olunur. Orta dəhliz layihəsi çərçivəsində Azərbaycan və Türkiyə Avropa ilə Asiyanı birləşdirən əsas tranzit xətlərindən birini formalaşdırmaq niyyətindədir. Bu isə təkcə nəqliyyat və logistika deyil, həm də enerji, investisiya və ticarət sahələrində koordinasiyanın güclənməsi deməkdir. Artıq tərəflər sadəcə tərəfdaş kimi yox, birgə iqtisadi maraqlar üzərində hərəkət edən aktorlar kimi çıxış etməyə başlayır.

Siyasi müstəvidə isə daha maraqlı bir tendensiya formalaşır: koordinasiyalı xarici siyasət. Azərbaycan və Türkiyə beynəlxalq platformalarda getdikcə daha çox ortaq mövqe nümayiş etdirir. Bu, xüsusilə Cənubi Qafqaz və Yaxın Şərqdə baş verən proseslərə yanaşmada özünü açıq şəkildə göstərir. Belə bir sinxronlaşma artıq diplomatik dəstəkdən daha irəli gedərək, vahid siyasi xəttin formalaşmasına işarə edir.

Bütün bu faktorlar onu göstərir ki, Azərbaycan-Türkiyə münasibətləri yeni - daha dərin və kompleks mərhələyə daxil olmalıdır. Bu mərhələnin əsas xüsusiyyəti hərbi, iqtisadi və siyasi sahələrdə paralel inteqrasiyanın güclənməsidir. Lakin bu prosesin tam hərbi-siyasi ittifaqa çevrilməsi ləngiyir. Belə görünür ki, regionda digər güclərin maraqları, geosiyasi balansın qorunması zərurəti və Azərbaycanın çoxvektorlu siyasəti bu prosesi müəyyən çərçivədə saxlayır.

**Ədalət Partiyasının sədri Mütəllim Rəhimli "Yeni Müsavat"a söylədi ki, Azərbaycan-Türkiyə münasibətləri şüarçılıqdan əməli mərhələyə qədəm qoyub:** "Artıq tərəflər siyasi, hərbi və iqtisadi maraqlarını uzlaşdırmaqla paralel addımlar atmaqdadırlar. Əvvəllər səsləndirilən və qulağa xoş gələn bəyanatlar və çağırışlar daha çox ictimai fikirdə yaxınlaşma və uyğunlaşma yaradırdısa, indi həyata keçirilən işlər reklamı sevmir. İki ölkə xalqları arasında münasibətlər kifayət qədər yaxşıdır. Artıq onlar arasında anlaşılmazlıq yaratmaq cəhdləri iflasa məhkumdur. Həm getdikcə dərinləşən əməkdaşlığı dayandırmaq mümkün deyil. Heç kimin buna gücü çatmaz.

Şuşa Bəyannaməsi Azərbaycan-Türkiyə münasibətləri strateji müttəfiqliyə çevirdi. Artıq iki ölkə beynəlxalq münasibətlərdə vahid mövqedən çıxış edir. İstənilən beynəlxalq tədbirlərdə Azərbaycanın iştirakı Türkiyənin də təmsil olunması deməkdir, eyni zamanda da əksinə. Regionda son zamanlar baş verən hadisələr prosesə ehtiyatlı və həmçinin obyektiv, milli maraqlar baxımından yanaşmanı diktə edir. Bəzən münasibətlərdəki yekdilliyin nümayişi əks tərəfdə qıcıq və doğru olmayan reaksiyalar formalaşdırır. Ona görə də indi danışmaqdan və reklamdan daha çox pərdənin arxa tərəfində uzlaşdırılmış fəaliyyət daha effektlidir. Azərbaycanla Türkiyə hazırda bunu da prioritet götürür. Ona görə də Bakı-Ankara arasında yeni mərhələnin reallaşmasını yubanmaq kimi yox, reallığa adekvat yanaşma kimi qəbul etmək lazımdır".

**AMİP Ali Məclisinin sədri, politoloq Rəşad Bayramov** hesab edir ki, Bakı ilə Ankara arasında münasibətlərin son illərdə keçdiyi transformasiya, bu münasibətlərin müttəfiqlikdən funksional və çoxşaxəli strateji ittifaqa doğru irəlilədiyini göstərir: "2021-ci ildə imzalanmış Şuşa Bəyannaməsi bu prosesin hüquqi və siyasi çərçivəsini müəyyənləşdirdi və faktiki olaraq münasibətləri yeni mərhələyə çıxardı. Buna baxmayaraq, nəzəri baxımdan artıq formalaşmış kimi görünən bu ittifaq modelinin praktikada tam hərbi-siyasi blok səviyyəsinə yüksəlməsi müşahidə edilmir. Bu ləngimə isə təsadüfi deyil və bir neçə struktur amillə izah olunur. Əsas səbəblərdən biri regionun mürəkkəb geosiyasi balansıdır. Cənubi Qafqaz hələ də müxtəlif güc mərkəzlərinin, yeni Rusiya, İran və Qərb aktorlarının maraqlarının kəsişdiyi bir məkan olaraq qalır. Azərbaycan bu reallığı nəzərə alaraq öz xarici siyasətini mümkün qədər balanslaşdırılmış şəkildə qurmağa çalışır. Tam formatlı hərbi-siyasi ittifaqa keçid isə bu balansı poza və Bakını müəyyən blok qarşıdurmasının açıq tərəfinə çevirə bilər. Bu isə Azərbaycanın uzun illərdir qoruduğu çoxvektorlu siyasət kursu ilə ziddiyyət təşkil edir.

Odur ki, hərbi sahədə inteqrasiyanın sürətinə baxmayaraq, bu prosesin də müəyyən hədləri var. Birgə təlimlər, müdafiə sənayesi əməkdaşlığı və texnologiya transferi ciddi nəticələr doğurur, lakin vahid komanda-struktur sisteminə keçid və ya kollektiv müdafiə mexanizmlərinin tam tətbiqinin müşahidə olunmaması da səbəbsiz deyil. Bunun səbəbi təkcə siyasi ehtiyatlılıq deyil, həm də regionda hərbi eskalasiya risklərinin idarə olunması zərurətidir. Açıq hərbi bloklaşma digər regional aktorları daha sərt reaksiyalara sövq edə bilər".

**Politoloq iqtisadi sahədə də oxşar vəziyyətin müşahidə olunduğunu qeyd etdi:** "Orta dəhliz kimi təşəbbüslər Azərbaycan və Türkiyəni strateji tərəfdaşa çevirsə də, bu sahədə inteqrasiyanın institusional dərinliyi hələ Avropa İttifaqı tipli modellərlə müqayisə ediləbiləcək səviyyədə deyil. Bunun üçün daha koordinasiyalı iqtisadi siyasət, vahid tənzimləmə mexanizmləri və uzunmüddətli institusional çərçivə tələb olunur ki, bu da zaman alan prosesdir. Nəhayət, Türkiyənin özünün qlobal və regional prioritetləri də bu ləngiməyə təsir edir. Ankara paralel olaraq NATO öhdəlikləri, Yaxın Şərq siyasəti və digər geosiyasi istiqamətlər arasında balans qurmağa çalışır. Bu isə Azərbaycanla münasibətlərin nə qədər strateji olsa da, onların tam hərbi-siyasi ittifaq səviyyəsinə yüksəlməsini müəyyən qədər məhdudlaşdırır.

Bütün bunların fonunda aydın olur ki, Bakı-Ankara xəttində yeni mərhələnin ləngiməsi əslində geriləmə deyil, daha çox nəzarətli və ölçülüb-biçilmiş inkişaf strategiyasının nəticəsidir. Tərəflər tələsik və riskli addımlar atmaq yerinə, mövcud əməkdaşlığı mərhələli şəkildə dərinləşdirməyə üstünlük verirlər. Bu isə uzunmüddətli perspektivdə daha dayanıqlı və balanslaşdırılmış ittifaq modelinin formalaşmasına xidmət edə bilər. Yəni başqa sözlə desək, Azərbaycan və Türkiyə arasında və gələcəkdə Türk dövlətləri arasında hərbi ittifaq qaçılmaz prosesdir, amma bu prosesin uğuru və dayanıqlılığı üçün uzunmüddətli fəaliyyət tələb olunur".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# Azərbaycanın müdafiə naziri İtaliyaya niyə getmişdi?



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti İtaliya Respublikasına rəsmi səfər edib.**

Səfər çərçivəsində nümayəndə heyəti ölkəmizin İtaliya Respublikasındakı səfirliyini ziyarət edib.

Daha sonra general-polkovnik Zakir Həsənov italiyalı həmkarı cənab Quido Krosetto ilə görüşüb.

Protokola uyğun olaraq rəsmi qarşılanma mərasimində müdafiə nazirləri fəxri qarovul dəstəsinin qarşısından keçiblər. Sonra hər iki ölkənin dövlət himnləri səsləndirilib.

Azərbaycanın İtaliyadakı fövqəladə və səlahiyyətli səfiri cənab Rəşad Aslanovun da iştirak etdiyi görüşdə ölkələrimiz arasında strateji tərəfdaşlığa əsaslanan münasibətlər və perspektivləri müzakirə olunub.

Görüşdə həmçinin hərbi, hərbi-texniki, hərbi-təhsil sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.



# İran raket ehtiyatlarının yarısını saxlayıb

**İran ABŞ-İsrail hərbi əməliyyatından əvvəl malik olduğu raket potensialının təxminən yarısını istifadə edib.**

Bu barədə ABŞ dövlət katibi Marko Rubio "Fox News" telekanalına müsahibəsində bildirib.

"İndi onlarda raketlərin yarısı qalıb", - o deyib. ABŞ-nin xarici siyasət idarəsinin başçısı həmçinin iddia edib ki, Tehranın istehsal gücü və Hərbi Dəniz Qüvvələri qalmayıb.

Xatırladaq ki, fevralın 28-də ABŞ və İsrail İrana qarşı hərbi əməliyyatlara başlayıb və bir sıra şəhərlərə hava zərbələri endirilib. Həmin gün zərbələr nəticəsində İranın Ali rəhbəri Əli Xamenei öldürülüb. İran buna cavab olaraq İsrail ərazisinə raket zərbələri endirib və Fars körfəzi ölkələrindəki ABŞ hərbi bazalarına hücum edib.

İran, ABŞ və onların müttəfiqləri aprelin 8-nə keçən gecə atəşkəs razılaşmasına nail olublar. Tramp sonradan atəşkəsi qeyri-müəyyən müddətə uzadıb.

Tərəflər münaqişəni həll etmək üçün Pakistanda danışıqlar aparmağa çalışıblar, lakin 11-12 apreldə keçirilən ilk raund heç bir nəticə verməyib.

ABŞ Tehrana təzyiq göstərmək üçün İran limanlarını və Hörmüz boğazından keçidi blokadaya aldığını elan edib. İran da öz növbəsində Fars körfəzinə gedən gəmilər üçün Hörmüz boğazının blokadasını elan edib. Regionda dinamik şəkildə dəyişən vəziyyət qlobal enerji böhranına səbəb olub.

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

# “İdrak”da güllələnən müəllim işdən çıxdı




**“İdrak” liseyində bir müddət əvvəl baş vermiş silahlı insident zamanı yaralanan müəllimə ilə bağlı yeni məlumat yayılıb.**

Modern.az xəbər verir ki, hadisə zamanı xəsarət alan müəllim Şəhla Kamilova işdən ayrılıb. Silahlı insidenti törədən şagirdə gəlincə isə iddialara görə, istintaq yekunlaşdıqdan sonra təhsilini davam etdirməsi üçün ailəsi tərəfindən onun Londona göndərilməsi planlaşdırılır.

Qeyd edək ki, bu yaxınlarda yayılmış digər məlumatda müəllimənin hadisəni törədən şagirdi bağışladığı bildirilib. Barışığı təsdiq edən rəsmi sənəd istintaq orqanına təqdim edilib. Bu səbəbdən də şagirdin azadlığa buraxılacağı gözlənilir.

Xatırladaq ki, hadisə fevralın 6-da baş verib. “İdrak” liseyinin 10-cu sinif şagirdi Əli Şirinov atasına məxsus ov silahı ilə məktəbə gələrək müəllimə Şəhla Kamilovaya atəş açıb. Güllə yarası almış müəllimə ağır vəziyyətdə xəstəxanaya yerləşdirilib. Həkimlər müəllimənin boyun nahiyəsindən 16 qırma çıxarıblar. Hadisəni törədən şagird saxlanılıb, onun barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçilib.

Faktla bağlı Binəqədi Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi açılıb.

# Məktəblərdə çantalar niyə yoxlanılır?



**Ölkədə fəaliyyət göstərən təxminən 4 min ümumtəhsil müəssisəsində şagirdlər, müəllimlər və valideynlər də daxil olmaqla, hər bir məktəbdə gündəlik olaraq 1000-dən çox insanın qarşılıqlı ünsiyyətdə olduğunu görərik. Bu miqyas təhsil mühitini zəngin sosial platformaya çevirir, eyni zamanda müəyyən hallarda fikir ayrılıqları və münaqişələrin yaranmasını da qaçılmaz edir.**

Bu sözləri Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin (MÜTDA) direktoru Eşqi Bağırov jurnalistlər üçün keçirilən brifinqdə qeyd edib.

“Bununla belə, 1,5 milyondan artıq şagird kontingenti fonunda münaqişələrdə iştirak edənlərin sayı olduqca kiçik bir hissəni təşkil edir. Cəmiyyətdə daha çox məhz baş vermiş hadisələr görünür və müzakirə olunur. Halbuki hər gün məktəblərdə müəllimlərin, psixoloqların və valideynlərin peşəkar və operativ müdaxiləsi nəticəsində çoxsaylı potensial münaqişələr böyümədən, konstruktiv şəkildə həllini tapır”.

O bildirib ki, bu baxımdan təhsil işçilərinin əməyini xüsusi qeyd etmək və onların fəaliyyətinə ictimai dəstəyi gücləndirmək vacibdir.

Eyni zamanda vurğulanıb ki, baş vermiş münaqişələrin təkrarlanmaması üçün profilaktik tədbirlərin genişləndirilməsi, psixoloji xidmətlərin gücləndirilməsi və məktəb-valideyn əməkdaşlığının daha da inkişaf etdirilməsi əsas prioritetlərdən biri olaraq qalır.

Eşqi Bağırov əlavə edib ki, mütəmadi olaraq DİN və aidiyyəti digər qurumlarla birgə məktəblərdə reydlər təşkil edilir. Şagird intizam qaydalarına əsasən məktəbə gətirilməsi qadağan edilmiş əşyaların məktəbli çantasında aşkar olunması halları ciddi nəzarətə götürülür.

# XİN-dən sürpriz qərar - diplomdan əvvəl diplomatiya

## Sabiq səfir: “Məqsəd daha geniş biliklərə malik namizədlərin komissiya tərəfindən yoxlanılmasıdır”

**Azərbaycanın Xarici İşlər Nazirliyi diplomatik xidmətə qəbul üzrə müsabiqəyə müraciətlərin baxılması qaydalarında yenilik edib.**




Nazirlikdən bildirilib ki, bundan sonra cari tədris ilində ali təhsilini başa vurmaq üzrə olan tələbələr də müsabiqədə iştirak edə biləcəklər. Dəyişiklik tədris ilinin sonuna yaxınlaşma, məzunlardan daxil olan çoxsaylı müraciətlər və mərhələli müsabiqə prosesinin uzunmüddətli olması nəzərə alınaraq edilib. Yeniliyin tətbiqi üçün Dövlət İmtahan Mərkəzi ilə birgə qeydiyyat sistemi texniki cəhətdən uyğunlaşdırılıb.

Müsabiqənin digər mərhələləri və ümumi iştirak şərtləri dəyişməz qalır. Bütün mərhələləri uğurla keçən namizədlər yenə də müvafiq ixtisas üzrə ali təhsil diplomu daxil olmaqla tələb olunan sənədləri təqdim etməlidirlər.

Qeydiyyat DİM-in internet portalında “Xarici İşlər Nazirliyinə qəbul üzrə müsabiqədə iştirak üçün onlayn qeydiyyat xidməti” bölməsi vasitəsilə aparılır. Bu dəyişiklik texniki görünə bilər, amma əslində kifayət qədər strateji addımdır. Əvvəllər tələbələr diplomu almadan müsabiqəyə qatıla bilmirdilər və bu da ən azı 1 il vaxt itkisi yaradırdı. Yeni qayda isə gənclərə vaxt qazandırır - onlar son kursda oxuya-oxuya artıq seçim prosesinə qoşula bilirlər.

Digər tərəfdən, bu addım rəqabəti də artıracaq. Çünki artıq bazara yalnız hazır məzunlar yox, həm də ən yaxşı son kurs tələbələri daxil olur. Bu isə diplomatik xidmətə daha hazırlıqlı və motivasiyalı kadrların seçilməsinə şərait yaradır.

Amma bir balans da qorunub: yekunda diplom yenə məcburidir. Yəni sistem həm elastikləşir, həm də keyfiyyət standartını aşağı salmır. Qısaca desək, bu yenilik daha çox gənci diplomatiyaya cəlb edən və prosesi sürətləndirən rasional qərardır.

**Keçmiş xarici işlər naziri Tofiq Zülfüqarov** “Yeni Müsavat”a açıqlamasında bildirib ki, bu tələbələr referensiya səviyyəsində qəbul edilirlər və bu, diplomatik rütbə sayılmır, daha çox texniki status, yəni heyət səviyyəsidir. Daha sonra isə diplomatik heyətə uyğun rütbələr verilir. "Açığı, düşünürəm ki, məqsəd daha geniş biliklərə malik namizədlərin komissiya tərəfindən yoxlanılmasıdır. Yəni daha hazırlıqlı, potensialı yüksək olan gənclərin də bu prosesdə iştirakına imkan yaradılır", - deyə o bildirib.

**Təhsil eksperti Elçin Əfəndi isə bildirib ki, əvvəlki dövrlərlə müqayisə etsək, bu yanaşma müsbət qiymətləndirilməlidir:** “Çünki ölkədə beynəlxalq münasibətlər və ya beynəlxalq iqtisadiyyat ixtisasını bitirən kifayət qədər namizəd var idi ki, onlar uzun müddət öz ixtisasları üzrə iş tapa bilmədiklərini dilə gətirirdilər.

Amma son illərdə, qeyd etdiyim kimi, həm Xarici İşlər Nazirliyi, həm də Dövlət İmtahan Mərkəzi tərəfindən diplomatik xidmətə qəbul üzrə imtahanlar keçirilir və bu imtahanlarda uğur qazanan namizədlər növbəti mərhələlərdən keçdikdən sonra işə qəbul olunurlar.

Buna baxmayaraq, əmək bazarında ixtisaslı kadrlarla bağlı müəyyən çatışmazlıqlar hələ də qalmaqdadır. Məhz bu baxımdan, hələ təhsilini başa vurmaq üzrə olan tələbələrin də müsabiqəyə buraxılması haqqında qərarın qəbul edilməsi mövcud və ya yarana biləcək boşluqların aradan qaldırılmasına hesablanmış addım kimi görünür".

**Onun sözlərinə görə, bu qərar tələbələr üçün də ciddi motivasiya rolunu oynaya bilər:** “Çünki artıq onlar anlayırlar ki, son kursda oxusalar belə, diplomatik xidmətlə bağlı imtahanlarda iştirak etmək imkanına malikdirlər.

Ümumilikdə, bu yanaşmanı müsbət addım kimi qiymətləndirmək olar. Bu, həm abituriyentlər, həm də tələbələr üçün əlavə stimul yaradır və gələcək karyera planlaşdırılmasında mühüm rol oynaya bilər".

**Təhsil eksperti İlqar Orucun sözlərinə görə, bu addım intellektual potensialın prosesə daha erkən cəlb olunmasına imkan yaradacaq. Yəni ən istedadlı və perspektivli tələbələr universiteti bitirən kimi başqa sahələrə yönəlmədən birbaşa diplomatik fəaliyyətə qoşula biləcəklər:** “Digər tərəfdən, bu dəyişiklik vaxt itkisini aradan qaldırır. Çünki diplomatik müsabiqələr çoxmərhələli olur və aylarla davam edə bilir. Tələbələrə son kursda bu mərhələlərdən keçmək imkanı verilməsi isə onların məzun olan kimi işə hazır kadr kimi fəaliyyətə başlamasına şərait yaradır. Bundan əlavə, bir çox inkişaf etmiş ölkələrdə də xarici siyasət qurumları son kurs tələbələrini işə qəbul prosesinə cəlb edir. Bu baxımdan, tətbiq edilən yenilik beynəlxalq təcrübəyə uyğun hesab olunur.

Eyni zamanda bu addım məzunlar üçün motivasiya yaradır. Beynəlxalq münasibətlər və hüquq sahəsində oxuyan tələbələr artıq son kursda gələcək karyeralarına daha fokuslu şəkildə yanaşa bilirlər. Azərbaycanda diplomatiya sahəsində kadr hazırlayan müasir və güclü təhsil imkanlarının olması da bu prosesə əlavə üstünlük verir və məzunlar üçün geniş imkanlar açır.

Burada əsas məqsədlərdən biri kadr axınının qarşısını almaqdır. Əvvəllər tələbələr diplom almadan müsabiqəyə buraxılmırdı və bu müddətdə yüksək bilik və dil bacarıqları olan gənclər özəl sektora və ya xarici şirkətlərə yönəlirdi. Yeni yanaşma isə ən yaxşı kadrları vaxtında cəlb etməyə imkan verir.

Eyni zamanda qəbul prosesində dil bilikləri, analitik düşüncə və dünyagörüşü yoxlanılır və bu mərhələlər kifayət qədər vaxt aparır. Buna görə də məzun olduqdan sonra əlavə gözləmə müddəti səmərəli hesab olunmurdu.

Son dövrlərdə məzun olmağa yaxın tələbələrin nazirliyə çoxsaylı müraciət etməsi də bu sahəyə marağın yüksək olduğunu göstərir. Bu tələbat nəzərə alınaraq, həm Xarici İşlər Nazirliyi, həm də Dövlət İmtahan Mərkəzi tərəfindən uyğun hüquqi və texniki mexanizmlər yaradılıb".

❑ **Şahanə RƏHİMLİ, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

# Solovyov üzr istəməyə məcbur oldu

## “Həddindən artıq emosionaldım və efirdə dediyim sözlərə daha diqqətli yanaşmalı idim”





**“Roskomnadzor” aprelin 16-da yayımlanan “Veçer s Vladimirom Solovyovım” tok-şousuna görə “Rossiya 1" kanalını yoxlamağa başlayıb. Buna səbəb aparıcının bloger Viktoriya Bonya barədə səsləndirdiyi təhqiramiz ifadələr olub.**

“Yeni Müsavat” xəbər verir ki, bu barədə “Mojem obyasnit” nəşri məlumat yayıb. Nəşrin əldə etdiyi məlumata görə, proqramla bağlı şikayətdə vurğulanır ki, Solovyovun proqramı “12+” yaş məhdudiyyəti ilə yayımlandığı üçün onu uşaqlar da izləyə bilərdi və qanunvericiliyə görə, efirdə bu cür nalayiq ifadələrə yol verilməməlidir. Maraqlıdır ki, qurum şikayəti icraata götürüb.

Bundan əlavə, “Roskomnadzor” “Solovyov Live” kanalını da “Uşaqların sağlamlığı və inkişafına zərər verən informasiyadan qorunması haqqında” qanunun pozulması ehtimalı ilə yoxlayır. Şikayətə əsasən, aparıcının səhər verilişində yaş məhdudiyyəti, ümumiyyətlə, göstərilməyib.

Bundan əvvəl Kseniya Sobçak da Rusiyanın İstintaq Komitəsinə müraciət edərək, qurum rəhbəri Aleksandr Bastrıkindən Solovyovun Bonya barədə dediklərinə hüquqi qiymət verilməsini istəyib.

Yada salaq ki, aprelin ortalarında Viktoriya Bonya Vladimir Putinə videomüraciət edərək ölkədəki beş əsas problemi səsləndirmişdi. Kremlin cavabında bildirilib ki, bu müraciətdə “rezonans doğuran mövzular” qaldırılıb və onların üzərində “geniş iş aparılır”.

Bu müraciətdən sonra Solovyov Bonyanı canlı efirdə ən aşağı sözlərlə təhqir edib. Buna cavab olaraq Bonya Solovyova qarşı qadınları təhqir etdiyinə görə kollektiv məhkəmə iddiası qaldırmaqla hədələyib. Sosial şəbəkə istifadəçiləri də Bonyanı dəstəkləyiblər. Onlar Solovyovdan üzr istəməsini tələb ediblər.

**Vladimir Solovyov aprelin 28-də Viktoriya Bonyanı öz efirinə dəvət edərək, onu təhqir etdiyinə görə üzr istəyib:** “Bəli, əlbəttə ki, üzr istəməliyəm. Tamamilə haqlısan. Əlbəttə ki, həddindən artıq emosional idim və təbii ki, dediklərimin arxasındakı motivasiyadan və nə üçün deməyimdən asılı olmayaraq, efirdə dediyim sözlərə daha diqqətli yanaşmalı idim”.

Qeyd edək ki, müşahidəçilər Bonyanın müraciətinin yaratdığı əks-sədadan Kremlin narahat olduğunu və Solovyovun da buna görə ondan üzr istəməyə məcbur edildiyini bildirirlər.

Onu da qeyd edək ki, son vaxtlar Solovyovun adı həm yaratdığı xeyriyyə fondundan keçən iri maliyyə axınları, həm də ailəsinin həyat tərzi ilə bağlı ziddiyyətlər fonunda da yenidən diqqət mərkəzinə düşüb.

Bəllidir ki, 2022-ci ilin oktyabrında “SVR” (Solovyov Vladimir Rudolfoviç) adlı fond yaradılıb. Rəsmi olaraq bu qurumun məqsədi müharibə iştirakçılarına yardım göstərməkdir. Solovyov tez-tez böyük ianə kampaniyaları təşkil edir və on milyonlarla, hətta yüz milyonlarla rublun toplandığını bəyan edir.

Amma bu vəsaitlərin şəffaflığı ciddi suallar doğurur. Faktiki olaraq, milyardlarla rublun keçdiyi bir strukturdan söhbət gedir, lakin bu pulların necə və kim tərəfindən bölüşdürüldüyü cəmiyyət üçün qapalı qalır. Daha diqqətçəkən məqam isə ailəsi ilə bağlıdır. Solovyovun oğlu Londonda yaşayır və model kimi fəaliyyət göstərir. Onun Rusiya təbliğatında tez-tez “düşmən mərkəzi” kimi təqdim olunan bir şəhərdə yaşaması atasının ictimai çıxışlarında müdafiə etdiyi dəyərlərlə açıq ziddiyyət təşkil edir.

❑ **“Yeni Müsavat”**

# İTV-yə yeni baş direktor nə vaxt seçiləcək?

**İctimai Televiziya və Radio Yayımları Şirkətinin (İTV) Yayım Şurası direktor vakansiyasını hələ ki elan etməyib.**

Bunu bir neçə gün əvvəl “Trend”ə açıqlamasında Yayım Şurasının üzvü Azər Həsrət deyib.

O bildirib ki, hazırkı direktorun səlahiyyət müddəti may ayında başa çatır: “Mövcud qaydalara görə, rəsmi elan verilməlidir. Bundan sonra iddiaçılar öz ərizələrini təqdim edirlər. Müraciətlərə müvafiq qaydada baxılır və seçki keçirilir. Biz hələ ki bu barədə qərar verməmişik”.

Yayım Şurasının üzvü xatırladıb ki, müəyyən kriteriyalara uyğun gələn hər bir şəxs öz namizədliyini irəli sürə bilər.



# Ali Məhkəmə Zaur Baxşəliyevlə bağlı qərar verdi

**Ali Məhkəmədə ATV-nin məşhur aparıcısı Zaur Baxşəliyev barəsində xüsusi ittiham qaydasında verilmiş şikayətə baxılıb. Xəbərə görə, məhkəmə şikayəti təmin etməyib. Aparıcı ilə bağlı bəraət qərarı qüvvədə saxlanılıb. Qeyd edək ki, Z.Baxşəliyevə qarşı Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri üzrə ittiham irəli sürülmüşdü.**




# Kinematoqrafçılar İttifaqının qurultayı nə vaxtdır?

**“Mayın 8-də Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin iclası keçirilə bilər. Rasim Balayevin 40 mərasimi mayın 7-də olacaq”.**

Bunu “Teleqraf”a açıqlamasında Azərbaycan Kinematoqrafçılar İttifaqının (AKİ) katibi Əlisa Cabbarov deyib. Onun sözlərinə görə, AKİ-nin qurultayı mayın sonunda baş tuta bilər. Tarix İdarə Heyətinin iclasında dəqiqləşdiriləcək.

“İclasda müxtəlif təkliflər irəli sürülməsi mümkündür. Ümumiyyətlə, İdarə Heyəti ali orqan hesab olunur və burada istənilən təklif yenidən müzakirəyə çıxarılıb qəbul edilə bilər. Nizamnaməyə görə, qurumun katibləri sədrin əmri ilə təyin olunur. Yeni sədr kim seçilərsə, bu məsələ onun səlahiyyətinə daxil olacaq.

İdarə Heyəti qurultay tərəfindən formalaşdırılır, katiblik isə sədrin qərarı ilə müəyyən edilir. İdarə heyətinin səlahiyyət müddəti 2028-ci ilə qədər olsa da, müəyyən dəyişikliklər, yeni təkliflər və yeni üzvlərin əlavə olunması mümkündür. Hazırda İdarə Heyəti 36 üzvdən ibarətdir, 14 katib var. Üzvlərin sayının artırılması və ya azaldılması məsələsini də qurultay həll edir" - Əlisa Cabbarov bildirib.

Qeyd edək ki, mərhum Xalq artisti Rasim Balayev 2024-cü ildə AKİ-nin sədri seçilmişdi. O, bu il martın 29-u İstanbulda müalicə aldığı “Memorial” klinikada vəfat edib.

Xatırladaq ki, mətbuatda Azərbaycan Kinematoqrafçılar İttifaqının İdarə Heyətinin iclasının aprelin sonunda, qurultayın isə mayın 17-də keçiriləcəyi qeyd edilib.

# Primakov niyə işini itirdi?

## “Rossotrudniçestvo”nun sabiq rəhbəri Azərbaycanda bəzi jurnalist və media qurumlarını məhkəmə ilə hədələmişdi



**Rusiya Prezidenti Vladimir Putin İqor Çaykanı “Rossotrudniçestvo”nun rəhbəri təyin etdi və Yevgeni Primakovu vəzifədən uzaqlaşdırdı.**

Musavat.com xəbər verir ki, Y.Primakovun adı Azərbaycan mediasında ötən il Bakıda bağlanan “Rus evi”ndən sonra daha çox hallanırdı. Bəllidir ki, 2025-ci il fevralın 3-də Bakı “Rus Evi”nin fəaliyyətinin dayandırılması ilə bağlı Moskvaya nota göndərdi. Azərbaycan XİN mərkəzin hüquqi şəxs kimi qeydiyyata alınmadığını və ölkənin “qanunvericiliyini ciddi şəkildə pozduğunu” bəyan edib. Primakov isə özünün “Telegram” kanalında “işgüzar nüfuzunu qorumaq üçün” Azərbaycanda bəzi jurnalist və media qurumlarını məhkəməyə verməklə hədələmişdi.

“Rossotrudniçestvo” formal olaraq humanitar və mədəni əlaqələri inkişaf etdirən qurum kimi təqdim olunsa da, reallıqda o, Rusiyanın xaricdə “yumşaq güc” siyasətinin əsas alətlərindən biri sayılır. Bu baxımdan quruma rəhbər təyin olunan şəxsin kimliyi və reputasiyası xüsusi əhəmiyyət daşıyır. Məhz buna görə də Çaykanın bu posta gətirilməsi bəzi suallar doğurur. Rusiya mediası yazır ki, İqor Çayka üçün daha iddialı planlar mövcud idi. Onun Prezident Administrasiyasında yeni yaradılmış strateji layihələr blokunda yüksək vəzifəyə gətirilməsi nəzərdə tutulurdu. Lakin bu ssenari baş tutmadı. Hakimiyyət daxilində müəyyən qrupların bu təyinata qarşı çıxması və nəticədə kompromis variantın seçilməsi ehtimalı ön plana çıxır. Çaykanın ətrafında dolaşan iddialar isə təyinatın fonunu daha da mürəkkəbləşdirir. Xüsusilə “FSB” ilə bağlı müstəvidə səslənən məlumatlar diqqət çəkir. Bildirilir ki, FSB-nin 5-ci Xidməti Moldovada aparılan siyasi proseslərlə bağlı maliyyə pozuntularını araşdırıb və bu araşdırmalar müəyyən yüksək vəzifəli şəxsləri hədəfə alıb. İddialara görə, həmin proseslərdə Çaykanın adı da hallanıb.

Eyni zamanda onun “kölgə donanması” adlandırılan və sanksiyalardan yan keçməklə Rusiya neftinin daşınmasında istifadə olunduğu deyilən şəbəkə ilə əlaqələri barədə iddialar da gündəmdədir. Bütün bu məqamlar fonunda Çaykanın yeni vəzifəyə gətirilməsi bəziləri tərəfindən “geri çəkilmə”, digərləri tərəfindən isə “yenidən yerləşdirmə” kimi qiymətləndirilir.

Yevgeni Primakov isə artıq dövlət qulluğunda xidmət etmək istəmədiyini açıqlayıb. O deyib ki, Dövlət Dumasına namizədliyini irəli sürmək planı da yoxdur. Primakov jurnalistikaya qayıtmaq istədiyini və hazırda akademik işə maraqlandığını söylədi.

“Dövlət qulluğundan ayrılmağımız sevgi və qarşılıqlı hörmətdən irəli gəlir. Şübhəsiz ki, mən Rusiyanın vətənpərvəri olaraq qalıram və özümü Ali Baş Komandanımızın komandasının üzvü hesab edirəm”, - deyə o bildirib.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

# Milli Məclis terrorizmə görə cəzaları sərtləşdirdi - vəkilin izahı

## **Ceyhun Yusifov:** “Söhbət hüququn dili ilə ifadə olunan, amma əslində dövlətin təhlükəsizlik doktrinasında baş verən ciddi transformasiyadan gedir”

**Azərbaycan terror fəaliyyətinə görə cəzaları sərtləşdirib. Milli Məclisin son iclasında parlament Cinayət Məcəlləsinə və “Terrorizmə qarşı mübarizə haqqında” Qanuna son oxunuşda dəyişiklikləri qəbul edib. Cinayət Məcəlləsinə terror təşkilatının yaradılması, idarə olunması və iştirakına görə məsuliyyət müəyyən edən 214-4-cü maddə əlavə edilib. Təşkilatın yaradılması və ya idarə olunmasına görə cəza 10 ildən 14 ilə qədər azadlıqdan məhrum etmə, onun fəaliyyətində iştirak isə 7 ildən 12 ilə qədər azadlıqdan məhrum etmədir. Şəxs əvvəlcədən hakimiyyət orqanlarına məlumat verərsə, cinayətin qarşısını almağa kömək edərsə və ya əlaqəli şəxslərin müəyyən edilməsinə kömək edərsə, əgər onların hərəkətləri başqa cinayət tərkibi yaratmırsa, məsuliyyətdən azad edilə bilər. Cinayət Məcəlləsinin terrorizmin maliyyələşdirilməsi və ona qarşı açıq çağırışlar maddələrinə, eləcə də “Terrorizmə qarşı mübarizə haqqında” Qanuna texniki dəyişikliklər də edilib.**



Cinayət Məcəlləsinin sabotajla bağlı 282-ci maddəsinə də dəyişikliklər edilib: qorunan obyektlərin siyahısı vacib informasiya infrastrukturu, enerji, nəqliyyat və telekommunikasiya şəbəkələrini əhatə etməklə genişləndirilib və elmi və texnoloji potensialın zəifləməsi sabotaj məqsədləri siyahısına əlavə edilib. Ağırlaşdırıcı halların siyahısına mütəşəkkil qrup tərəfindən fövqəladə və ya hərbi vəziyyət şəraitində, kütləvi iğtişaşlar zamanı, vəzifə səlahiyyətlərindən istifadə etməklə törədilən və səhlənkarlıq nəticəsində ölümə və ya digər ağır nəticələrə səbəb olan təxribatlar daxil olmaqla genişləndirilib. Həmçinin təxribatın hazırlanmasında iştirak edən şəxsin onun qarşısının alınmasına dərhal kömək etdiyi və başqa cinayətlər törətmədiyi təqdirdə məsuliyyətdən azad ediləbiləcəyi də nəzərdə tutulur. Qanunvericilikdə bu cür dəyişikliklər yalnız hüquqi akt kimi deyil, həm də siyasi mesaj kimi oxunur. Dövlət açıq şəkildə göstərir ki, terror və sabotaj fəaliyyətləri sistemli təhlükə kimi qiymətləndirilir, iştirak və yardım belə yüksək riskli cinayət kateqoriyasına daxildir və təhlükəsizlik dövlət siyasətinin mərkəzində dayanır. Burada əsas məqsəd cəzanı artırmaqdan çox, cinayətlərin baş verməsinin qarşısını almaq və təhlükəsizlik risklərini erkən mərhələdə zərərsizləşdirməkdir. Yeni dəyişikliklərin ən mühüm elementi terror təşkilatının yaradılması, idarə olunması və iştirakının ayrıca hüquqi çərçivədə daha ağır cəzalandırılmasıdır. Bu yanaşma klassik “fərdi cinayət” məntiqindən çıxaraq, “strukturlaşdırılmış təhlükə” konsepsiyasına keçidi ifadə edir. Başqa sözlə, artıq yalnız terror aktını həyata keçirən şəxs deyil, həmin strukturu yaradan və idarə edənlər də daha sərt məsuliyyət daşıyır. Bu isə hüquq sisteminin “zəncirvari məsuliyyət” prinsipini gücləndirir.

**Tanınmış vəkil Ceyhun Yusifov** “Yeni Müsavat”a deyib ki, Azərbaycan parlamentinin qəbul etdiyi bu dəyişikliklərə yalnız texniki hüquqi korrektə kimi baxmaq sadəlövhlük olardı. Burada söhbət hüququn dili ilə ifadə olunan, amma əslində dövlətin təhlükəsizlik doktrinasında baş verən ciddi transformasiyadan gedir: “Yeni əlavə olunan 214-4-cü maddə, yəni terror təşkilatının yaradılması, idarə olunması və iştirakın ayrıca cinayət kimi sərt şəkildə təsbit edilməsi klassik cinayət hüququ yanaşmasının genişləndirilməsidir. İndiyə qədər hüquq sistemi daha çox nəticəyə, yəni törədilmiş terror aktına fokuslanırdısa, indi artıq niyyət, struktur və təşkilatlanma mərhələsi cinayət məsuliyyətinin mərkəzinə çəkilir. Bu isə faktiki olaraq cinayət baş verməmişdən əvvəl müdaxilə modelidir”.

**Ceyhun Yusifovun sözlərinə görə, burada dövlət “reaktiv hüquqdan preventiv hüquqa” keçir:** “Bu çox vacib dönüşdür. Çünki terror artıq fərdi akt deyil, şəbəkə, maliyyə, ideoloji və logistika elementləri olan kompleks sistem kimi qəbul olunur. Bu sistemin istənilən halqasına daxil olan şəxs, istər təşkilatçı, istər maliyyələşdirici, istərsə də iştirakçı eyni təhlükə zəncirinin elementi sayılır. Məhz buna görə də cəzaların sərtləşdirilməsi sadəcə repressiv addım deyil. Əksinə, burada əsas məqsəd çəkindiricilik effektidir. Dövlət mesaj verir ki, hələ silah götürməyən, amma bu struktura qoşulanları hüquqi risk zonasında görür”.

**Ceyhun Yusifov deyib ki, digər mühüm məqam sabotajla bağlı 282-ci maddəyə edilən dəyişikliklərdir:** “Burada qorunan obyektlərin siyahısına informasiya infrastrukturu, enerji sistemləri və telekommunikasiya şəbəkələrinin daxil edilməsi təsadüfi deyil. Müasir dünyada müharibə artıq tank və top mərhələsini çoxdan keçib. Kiberməkan, enerji təminatı və informasiya axını dövlətlərin "sinir sistemi"nə çevrilib. Bu sistemə zərbə vurmaq bəzən fiziki terror aktından daha ağır nəticələr doğura bilər. Bu kontekstdə “elmi və texnoloji potensialın zəiflədilməsi”nin sabotaj məqsədi kimi tanınması xüsusilə diqqət çəkir. Bu, artıq klassik cinayət hüququndan çıxıb milli təhlükəsizlik hüququna keçiddir. Yəni dövlət yalnız bu günü deyil, gələcək inkişaf imkanlarını da hüquqi müdafiə altına alır”.

**Ceyhun Yusifov dəyişikliklərdə çox incə hüquqi mexanizmə - məsuliyyətdən azad edilmə institutunun saxlanılmasına da toxunub:** “İlk baxışda bu, humanist addım kimi görünə bilər. Amma əslində bu, hüquq-mühafizə orqanları üçün strateji alətdir. Dövlət burada bir tərəfdən cəzaları sərtləşdirir, digər tərəfdən isə sistem daxilində olan şəxslərə çıxış yolu qoyur. Bu, terror şəbəkələrinin daxildən parçalanmasına hesablanmış hüquqi konstruksiyadır.

Daha bir mühüm məqam isə ağırlaşdırıcı halların genişləndirilməsidir. Xüsusilə fövqəladə və ya hərbi vəziyyət şəraitində, kütləvi iğtişaşlar zamanı törədilən əməllərin ayrıca qeyd olunması göstərir ki, qanunverici mümkün risk ssenarilərini əvvəlcədən hüquqi çərçivəyə salmağa çalışır. Bu isə artıq hadisədən sonra reaksiya deyil, “hadisədən əvvəl hüquqi hazırlıq” modelidir.

**Ceyhun Yusifov dəyişikliklərin regionda və dünyada təhlükəsizlik mühiti kəskin şəkildə dəyişdiyi bir zamana təsadüf etməsinə diqqət çəkir:** “Dövlətlər artıq yalnız açıq terror aktlarından deyil, hibrid təhdidlərdən - informasiya təxribatı, iqtisadi sabotaj, enerji infrastrukturlarına hücum və s. qorunmağa çalışır. Azərbaycan da bu reallıqdan kənarda deyil. Bu dəyişikliklər bir növ səssiz fövqəladə vəziyyət hüququnun elementlərini ehtiva edir. Yəni formal olaraq fövqəladə vəziyyət elan olunmur, amma hüquq sistemi potensial təhlükələrə hazır vəziyyətə gətirilir. Nəticə etibarilə, Milli Məclisin qəbul etdiyi dəyişikliklər cəzanın sərtləşdirilməsindən daha çox, hüququn fəlsəfəsinin dəyişməsidir. Burada artıq əsas prinsip təhlükə baş verməzdən əvvəl onu hüquqi müstəvidə neytrallaşdırmaqdan ibarətdir. Bu isə o deməkdir ki, Azərbaycan hüquq sistemi terror və sabotajla mübarizədə yeni mərhələyə - preventiv, sistemli və çoxsəviyyəli müdafiə modelinə daxil olur”.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# Ali Məhkəmədən gözlənilməz qərar

**Ali Məhkəmə yol-nəqliyyat hadisəsi ilə bağlı cinayət işi üzrə qərar qəbul edilib.**



Bildirilib ki, iş materiallarına əsasən, təqsirləndirilən şəxs sürücülük hüququ olmadan idarə etdiyi avtomobillə yol hərəkəti qaydalarını pozaraq piyadanın ölümünə səbəb olan yol-nəqliyyat hadisəsi törətməkdə ittiham olunub. Həmçinin onun hadisə yerini tərk etdiyi göstərilib. Eyni zamanda həmin şəxsin psixi pozuntudan əziyyət çəkməsi və əməlini dərk etmək və idarə etmək qabiliyyətində olmaması barədə məlumatlar iş materiallarında əksini tapıb. Apelyasiya instansiyası məhkəməsi sübutların kifayət etmədiyi qənaətinə gələrək təqsirləndirilən şəxsin ona qarşı irəli sürülmüş ittiham üzrə təqsirliliyinin sübuta yetirilmədiyini əsası ilə şəxsin barəsində bəraət hökmü çıxarıb.

Məhkəmə qərarında qeyd edilib ki, bəzi şahidlər hadisə zamanı avtomobilin kim tərəfindən idarə edilməsi, nəqliyyat vasitəsinin hərəkətdən çıxarılması və hadisədən sonrakı hərəkətlər barədə bir-birini tamamlayan, lakin eyni zamanda ziddiyyətli məzmunlu məlumatlar veriblər. Xüsusilə telefon zəngləri və mobil operator məlumatlarında bəzi ifadələrin tam təsdiqlənmədiyi göstərilib, həmçinin təqsirləndirilən şəxsin psixi vəziyyəti ilə bağlı ekspert rəyi qiymətləndirilib. Apelyasiya instansiyası məhkəməsi təqdim edilmiş sübutların məcmusuna əsaslanaraq cinayəti törətmiş şəxsin düzgün müəyyən edilmədiyi qənaətinə gəlib.

Ali Məhkəmə isə iş materiallarını araşdıraraq ilk növbədə sübutetmə qaydaları və cinayət-prosessual qanunvericiliyin prinsiplərinə münasibət bildirməklə qeyd edib ki, təqdim olunan sübutlar məhkəmə baxışı zamanı təqsirləndirilən şəxsin hadisəni törətməsi ilə bağlı yaranmış şübhələri aradan qaldırmaq üçün kifayət etməyib. Kassasiya kollegiyası vurğulayıb ki, hər bir sübut ayrıca və bütün sübutlar məcmu halında mənsubiyyəti, mümkünlüyü və mötəbərliyi baxımından qiymətləndirilməli, ittihamın sübuta yetirilməsi üçün kifayət edən səviyyədə olmalıdır.

Ali Məhkəmə xüsusi olaraq təqsirsizlik prezumpsiyası prinsipinə geniş yer ayıraraq qeyd edib ki, cinayət-prosessual qanunvericiliyə əsasən şəxsin təqsirli bilinməsi yalnız onun təqsiri qanunla müəyyən edilmiş qaydada tam və şübhəsiz sübuta yetirildiyi halda mümkündür. İttihamın sübuta yetirilməsi zamanı aradan qaldırılması mümkün olmayan şübhələr mövcud olduqda isə həmin şübhələr təqsirləndirilən şəxsin xeyrinə şərh edilməlidir. Məhkəmə kollegiyası belə nəticəyə gəlib ki, konkret iş üzrə toplanmış sübutlar bu standartlara cavab vermədiyindən apelyasiya instansiyasının şəxsin təqsirliliyinin sübuta yetirilməməsi barədə qənaəti mahiyyət etibarilə qanuni hesab oluna bilər.

Beləliklə, Ali Məhkəmə tərəfindən apelyasiya instansiyası məhkəməsinin hökmü ləğv olunub və cinayət işi yenidən apelyasiya baxışına təyin edilib.

❑ **“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 16 (8865) 29 aprel 2026

Uşaq və gənclərin fiziki-mənəvi inkişafı

# Gəncləri siqaretə kim və nə aludə edir? - şok səbəblər, real rəqəmlər

## Qadağalar, cərimələr artır, amma siqaret çəkənlər azalmır

**Son zamanlar siqaret çəkənlərə qarşı cəza mexanizmlərinin sayı artıb. Amma buna baxmayaraq, yenə də yolda-izdə siqaret çəkənləri daha çox görürük. Mağazalarda siqaret almaq üçün növbəyə dayanan gənclər də bu təhlükəli durumun sübutudur. Bəs bu qadağalar, cərimələr xüsusən də gəncləri siqaretdən yayındıra bilirmi? Niyə bu zərərli vərdişə daha çox gənclər meyl edir? Ümumi rəqəmlər nədən xəbər verir?**

### Gənclər də siqaret çəkir, uşaqlar da...

Azərbaycanda siqaret istifadəsi əsasən kişilər arasında geniş yayılıb və erkən yaşlardan başlayır. Rəsmi statistikaya görə:

** Ölkədə 1 milyon 132 minə yaxın kişi siqaret çəkir*

** Siqaret çəkmə yaşı bəzi hallarda 15 yaşdan başlayır*

Digər rəsmi məlumatlara əsasən:

** 15 yaşdan yuxarı kişilərin təxminən 31 faizi siqaret çəkir*

** Qadınlarda bu göstərici cəmi 0,2 faizdir.*

Bu fərq göstərir ki, problem əsasən gənc kişilər arasında daha kəskin xarakter daşıyır. Eyni zamanda ölkə əhalisinin təxminən 2,3 milyon nəfəri gənclərdir, yəni hər 5 nəfərdən biri gəncdir. Bu isə siqaret asılılığının potensial təsir dairəsinin böyük olduğunu göstərir.

Bundan başqa, araşdırmalar göstərir ki, siqaretə başlama yaşı aşağı düşür və elektron siqaretlər bu prosesi sürətləndirir.

Məlumatlara görə, Azərbaycanda siqaret çəkənlərin müəyyən hissəsini uşaqlar və yeniyetmələr təşkil edir. Elektron siqaretlər gənclər üçün daha cəlbedici hesab olunur və asılılıq yaradır. Bu, müasir dövrdə ən təhlükəli tendensiyalardan biridir.

### Gəncləri siqaretə nə aparır?

Azərbaycanda və regionda aparılan sosial müşahidələrə görə gənclərin siqaretə başlamasının əsas səbəbləri bunlardır:

**Sosial faktorlar**

** dost çevrəsi və "qrup təsiri"*

** özünü böyümüş göstərmək istəyi*

** sosial status imitasiyası*

** stress və emosional gərginlik.*

**Mədəni faktorlar**

** kişilər arasında siqaretin "normal davranış" kimi qəbul edilməsi*

** ailədə siqaret çəkən valideyn modeli*

** media və sosial şəbəkə təsiri.*

**Yeni faktor**

** elektron siqaretlərin "zərərsiz" kimi təqdim edilməsi*

Bu faktorlar xüsusilə məktəblilər, tələbələr və işsiz gənclər arasında daha güclü təsir göstərir.

### Araşdırmalara görə, gənclər arasında xərçəng halları artmaqdadır

** 2024-cü ildə 14-29 yaş arasında 393 gəncdə bədxassəli şiş aşkarlanıb, bu isə əvvəlki illə müqayisədə ciddi artım deməkdir.*

Siqaret ürək-damar xəstəlikləri, ağciyər xəstəlikləri və erkən ölüm riski ilə birbaşa əlaqələndirilir. Ümumiyyətlə, elektron siqaret çəkənlər say etibarilə üstünlük təşkil edir. Çünki bu cür siqaretlər digərləri ilə müqayisədə daha cəlbedici olmaqla həm də asılılıq yaradır, ondan imtinanı çətinləşdirir.



### Elektron siqaret ləğv edildi və... Həkimlər danışır

Elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı, istifadəsini qadağan edən qanun təsdiqlənib. Bununla bağlı Prezident İlham Əliyev "Tütün və tütün məmulatı haqqında" Qanuna dəyişikliyi təsdiqləyib.

Sənəddə qeyd edilib ki, nikotin tərkibli elektron siqaretlər tütün məmulatı anlayışına daxil edilir. Belə ki, elektron siqaret qida məhsulları, tütün məhsulları, dərman vasitələri və tibbi cihazlar istisna olmaqla, nikotin tərkibli və ya nikotin tərkibi olmayan buxarın tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş və müştük və ya digər komponentləri, o cümlədən kartrici və flakonu olan və ya olmayan cihaz vasitəsilə istifadə etmək üçün nəzərdə tutulmuş məhsuldur. Elektron siqaretlərin flakonundan bir və ya bir neçə dəfə istifadə edilə bilər və ya onlar birdəfəlik kartriclərlə təkrar doldurula bilər.

Qanunda qeyd edilib ki, qızdırılan tütün məmulatı isə elektron siqaret hesab edilməyəcək.

Vurğulanıb ki, qızdırılan tütün məmulatı tütündən (tütün qarışığından) və onun istehsalında istifadə edilən qeyri-tütün komponentlərindən ibarət, alışdırılmadan və tütün tüstüsü əmələ gəlmədən qızdırılma prosesində yaranan nikotin tərkibli aerozolun tənəffüs yolu ilə insan orqanizminə daxil olması üçün nəzərdə tutulmuş məmulatdır.

Bildirilib ki, anlayışların dəqiqləşdirilməsi və yeni anlayışların müəyyən olunması tütün məmulatlarının, o cümlədən qızdırılan tütün məmulatının, habelə elektron siqaretin hüquq tətbiqetmədə daha dəqiq təsnifləşdirilməsinə və diferensasiyasına imkan yaradacaq.

Eyni zamanda uyğunlaşdırma çərçivəsində Vergi Məcəlləsində, "Reklam haqqında" Qanunda müvafiq dəyişikliklər edilir. Buraya "birdəfəlik istifadə üçün elektron siqaret"in və "elektron siqaretlər üçün maye"nin aksizli mallar siyahısından çıxarılması və bundan irəli gələrək vergi dərəcələrinin ləğvi, eyni zamanda reklamla bağlı qadağanın yeni anlayışlara uyğunlaşdırılması aiddir.

Qanun 2026-cı il aprelin 1-dən qüvvəyə minib.

**Pulmonoloq Əsəd Beydullayev mediaya açıqlamasında bildirib ki, elektron siqaretlər heç də düşünüldüyü kimi siqareti tərgitməyə kömək etmir. Onun sözlərinə görə, elektron siqaretdən istifadə etmək ən azı adi siqaret qədər təhlükəlidir:** "Siqaretin insan orqanizmi üçün ən təhlükəli tərəfi onun tərkibindəki qətrandır. Həkimlər də ən əsas buna görə insanlara siqarətdən imtina etməsini məsləhət görür. Nikotin aludəçiləri isə çıxış yolunu elektron siqaretdə görürlər. Amma yanılırlar, siqaretin tərkibində olanlar demək olar ki, elektron siqretdə də mövcuddur və bu, insan sağlamlığı üçün birbaşa təhlükədir.

Elektron siqaretin buxarı tənəffüs yollarının və ağciyərlərin selikli qişasını məhv edir. Düzdür, elektron siqaretin tənəffüz yollarına vurduğu ziyanlar barəsində hələlik araşdırmalar o qədər də çox deyil. Amma istənilən hansısa yad, ağciyərin tanış olmadığı zərərli tüstünün tənəffüs yollarına getməsi zamanla patologiyalara gətirib çıxarır".

**O vurğulayıb ki, elektron siqaret marketinq siyasətinə xidmət edən bir vasitədir:** "Yekun olaraq hər iki siqaret ölümə aparan yoldur. Elektron siqaret bir əvəzedicidir və siqaret şirkətlərinin reklam siyasəti üçün vasitədir. Düzdür, dünya ölkələri insanları siqaretdən çəkinməyə çağırır, bununla bağlı videoçarxlar da təqdim edir. Amma bununla bərabər, biz elektron siqaretlərin reklamını da görürük. Guya ki, insanlar onun vasitəsilə siqaretdən imtina edə bilər. Ancaq nikotin aludəçiləri anlamalıdır ki, bu, birmənalı olaraq çıxış yolu deyil, istənilən ağciyər üçün yad olan tüstü sağlamlığa zərərdir. Siqaretdən isə şəxsi iradəmizlə imtina edə bilərik".

Azərbaycan Respublikasının Mediанın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

# Qonşu ölkədə yeni böhran dalğası

**Ermənistanda mayeləşdirilmiş qaz çatışmazlığı var. Yanacaqdoldurma məntəqələrində sürücülərə maye qazın olmadığı deyilir. Məsələ ilə bağlı araşdırma aparan "Azatutyun" radiosu yazır: "İrəvanda bir neçə yanacaqdoldurma məntəqəsində yanacaq axtardıq, amma tapa bilmədik. Məsələn, böyük şəbəkələrdən biri bugünlərdə yalnız əvvəlcədən alınmış kuponlarla mayeləşdirilmiş qaz satır. Başqa yol yoxdur.**



Nəhayət, mərkəzə yaxın bir yanacaqdoldurma məntəqəsində mayeləşdirilmiş qaz tapdıq. Rusiyadan yanacaq daşıyan yük maşını təzə gəlmişdi və burada ən azı 2 gün mayeləşdirilmiş qaz olacaq. Onu litri 255 drama satırdılar və uzun maşın növbələri var idi. Cəmi bir neçə gün ərzində maye qazın qiyməti ən azı 50-70 dram artıb. "Heç bir yer yoxdur, yalnız burada, bütün yanacaqdoldurma məntəqələri bağlıdır. Ya heç biri yoxdur, ya da açılmır, bilmirəm", - deyə vətəndaşlardan biri bildirib. Kişinin sualı bir neçə gündür on minlərlə sürücünü narahat edir: niyə maye qaz yoxdur? Son bir neçə gündə yanacaq qiymətləri kəskin şəkildə artsa da və yanacaqdoldurma məntəqələri bir-birinin ardınca boşalsa da, hökumət hələlik səbəbi ilə bağlı heç bir izahat verməyib. Son günlərdə Ermənistanı Rusiya ilə birləşdirən yeganə quru yolu keçid məntəqəsi hava şəraiti səbəbindən yenidən bağlanıb, yük maşınları yolda qalıb və bir neçə gün ərzində Ermənistanın maye qaz ehtiyatları demək olar ki, tükənib. İki gün əvvəl Gürcüstan tərəfi yolun açıq olduğunu elan etsə də məhdudiyyətlər var idi: müəyyən hissələrdə yük maşınları yalnız tunellərdən keçə bilər.

Gürcüstan yaşayış məntəqəsindən Çeçenistana qədər təxminən 300 kilometrlik yol boyunca hərəkət edən 5 tondan çox ağırlığında yük maşınları və avtobuslar üçün daha sərt yol hərəkəti qaydaları müəyyən edilib. Maye qaz idxal edən şirkətlərdən birinin rəhbəri bildirib ki, hazırda bir çox Ermənistan yük maşını yolda ilişib qalıb, həm Ermənistandan Rusiyaya gedən yolda, həm də əks istiqamətdə növbələr yaranıb. O bildirib ki, maye qaz daşıyan yük maşınları gələndə yanacaq çatışmazlığı məsələsi həll olunacaq. Həmsöhbətimizin sözlərinə görə, bazardakı kəsir yaxın günlərdə həll oluna bilər. Lakin aşağı qiymətləri gözləməyə dəyməz. Həmsöhbətimizin sözlərinə görə, logistika problemlərindən əlavə, maya dəyərinə təsir edən digər komponentlər də bahalaşır. Ermənistan əsasən Rusiyadan maye qaz alır, İrandan idxal isə daha az həcmdədir. Bu il Larsdan keçmək də çətin idi, vəziyyət eyni idi - yanacaq yox idi, hətta yanacaq olanda belə, xeyli baha idi - cəmi bir neçə gün ərzində qiymət 180-190 dramdan 240 drama qalxdı. Məhz o vaxt, narazılıq dalğasının artdığı bir vaxtda iqtisadiyyat naziri Gevorq Papoyan elan etdi: "Ermənistan və Azərbaycan arasında maye qaz və bitumun Azərbaycan ərazisindən dəmir yolu ilə daşınması ilə bağlı razılıq əldə edilib. Artıq iş adamlarımız da bu fürsətdən yararlana bilərlər". Papoyanın dediyindən üç ay keçib və indiyə qədər maye qaz dəmir yolu ilə Ermənistana daşınmayıb". Hesab edilir ki, məhz Azərbaycan ərazisindən istifadə Ermənistanda maye qazla bağlı problemin həllinin əsas vasitəsidir.

**Elan:**

**Bakı Dövlət Universiteti tərəfindən Piriyev Vəfadar Namiq oğluna verilmiş B099876 nömrəli diplomun əlavəsi itdiyi üçün etibarsız sayılır.**

***

**Sumqayıt şəhər sakini, 1991-ci il təvəllüdlü Qocayev Cavid Xudaverdi oğluna məxsus AYNA Təlim-Tədris Mərkəzi tərəfindən təqdim edilmiş taksi sürücülük sertifikatı 1 aprel tarixində itib.**

**Qeyd olunan sənəd 2024-cü ilin iyul ayında alınıb.**

**Sənədi tapan şəxslərdən xahiş olunur ki, 070-219-89-85 nömrəsi ilə əlaqə saxlasınlar.**

YENİ MÜSAVAT
Son səhifə
N 16 (8865) 29 aprel 2026
Aprel

## Bunları bilirsinizmi?

*Qarğalar qarışqaları əzib bədənlərinə sürtməklə parazitləri özlərindən uzaqlaşdırırlar.
*ABŞ-də prezident olmaq üçün əhalinin 27%-nin səsini toplamaq kifayətdir.
*Kentukki dağlarında mavi dərili insanlar yaşayır.
*Onlayn sifariş verilən ilk şeylərdən biri pizza idi.
*Çində yaşayan monqolların sayı Monqolustanda yaşayan monqolların sayından çoxdur.
*Əsir çitalar çox vaxt itlərlə yaşayır, çünki itlər onları sakitləşdirir.
*Salvador Dali Disney üçün cizgi filmləri yaradıb.
*Sevdiyiniz birinə baxarkən də göz bəbəkləriniz genişlənər, nifrət etdiyiniz birinə baxarkən də.



## Səhərlər beyin fəaliyyətini necə artırmaq olar?

Neyrobioloq Ramzes Alkayd səhər saatlarında beyin fəaliyyətini stimullaşdırmaq üçün idman hərəkətləri etməyi və ardından faydalı səhər yeməyi yeməyi tövsiyə edib.

Oxu.Az xəbər verir ki, bu barədə "Men's Journal" nəşri məlumat yayıb.

Mütəxəssisin sözlərinə görə, fiziki aktivlik kimi güc məşqləri və ya sürətli addımlarla gəzinti seçilə bilər. Ekspert vurğulayıb ki, səhər edilən isinmə hərəkətləri və zülal tərkibli qida qəbulu beyinin prefrontal qabığındakı qanı oksigenlə zənginləşdirir. Məhz bu nahiyə mürəkkəb qərarların qəbul edilməsi və diqqətin toplanması proseslərini tənzimləyir. Kişilər üçün bu cür rutin testosteronun təbii yolla istehsalına da müsbət təsir göstərir.

**Neyrobioloq məsələni belə izah edib:** "Səhər saatlarında kortizol və testosteronun təbii yüksəlişindən yararlanaraq bioloji ritmləri düzgün nizamladıqda, beyin ən yüksək məhsuldarlıqla çalışır. Bədən, beyin və hormonlar tam sinxronlaşdıqda diqqət pozuntuları yaşamaq əvəzinə, sabit bir konsentrasiya səviyyəsi əldə etmək mümkündür".

Alkaydın fikrincə, müasir həyat tempinə uyğunlaşmaq prosesində beynin xüsusi dəstəyə ehtiyacı var. O bildirib ki, qısa məzmunlu xəbərləri davamlı izləmək beyni mövzular arasında sürətli keçidlər etməyə vadar edir ki, bu da ani dofamin artımı ehtiyacı yaradır. Tədqiqatçı əlavə edib ki, bu vəziyyət birbaşa diqqət dağınıqlığına və konsentrasiya problemlərinə yol açır.

# Keşiş çoxarvadlılığa görə həbs edildi



**Həyat yoldaşını sevmək və evliliyi xilas etmək mövzusunda kitab yazan 62 yaşlı keşiş Lesli Uilyams Floridada həbs edilib. O, çoxarvadlılıqda (biqamiya) ittiham olunur.**

Bu barədə "New York Post" nəşri məlumat yayıb. Keşiş Lesli Uilyams aprelin 22-də Corciya ştatında verilən order əsasında saxlanılıb. O, Florida ştatının təqaüdçülər üçün nəzərdə tutulan "The Villages" icmasında dini xidmətə rəhbərlik edirdi. Keçən ilin dekabr ayında keşiş sosial şəbəkələrdə Sindi adlı bir qadınla evləndiyini elan edib.

Bu xəbər sosial media istifadəçiləri tərəfindən həm təbriklərlə, həm də keşişin artıq evli olması ilə bağlı təəccüblə qarşılanıb. Hazırda hakimiyyət orqanları keşişin Corciya ştatına ekstradisiyasını tələb edir.

Qeyd edək ki, Lesli Uilyams 2017-ci ildə "Onu belə sev: Onu heç vaxt olmadığı kimi sev" adlı kitab nəşr etdirib. "Amazon" platformasındakı kitab təsvirinə görə, müəllif kişilərə münasibət problemlərini necə həll etmək və ailəni dağılmaqdan necə qorumaq barədə məsləhətlər verir. Keşiş hazırda girov müqabilində azadlığa buraxılmadan həbsxanada saxlanılır.

# Ürək üçün ən faydalı çörək açıqlandı



**Çörək seçimi yalnız dad məsələsi deyil. Gündəlik qida rasionumuzun ayrılmaz hissəsi olan çörək düzgün seçildikdə sağlamlığımız üçün də faydalı ola bilər.**

Bəs hansı daha sağlamdır: tam buğda, yoxsa çovdar?

Milli.Az xəbər verir ki, dietoloqlar və son tədqiqatlar göstərir ki, çovdar çörəyi diabet xəstələri və qan şəkərində dalğalanmalar yaşayanlar üçün xilaskardır. Tam buğda çörəyindən daha aşağı qlikemik indeksə (Gİ) malik olan çovdar qlükozanın qan dövranına yavaş-yavaş və tədricən daxil olmasına imkan verir.

Araşdırmalar göstərir ki, çovdarın unikal "ikinci yemək effekti" var və bu təsir yalnız yeyildikdə deyil, həm də sonrakı yeməklərdə qan şəkəri səviyyəsini tarazlaşdırmağa kömək edir.

Hər iki növ çörəyin tərkibində kalium və maqnezium kimi arteriya dostu minerallar olsa da, çovdar çörəyi daha yüksək həll olunan lif tərkibi ilə seçilir və bu da onu ürək sağlamlığı üçün daha yaxşı edir.

Həll olan liflər həzm sistemində xolesterola bağlanır və onun bədəndən xaric olmasına və beləliklə, LDL (pis) xolesterolu azaltmasına imkan verir.

Həzm sisteminə gəldikdə, çovdarın "prebiotik" gücü diqqətəlayiqdir. Çovdarın tərkibindəki lif bağırsaqdakı faydalı bakteriyaları qidalandırır və ümumi bağırsaq florasını gücləndirir. Tam buğda çörəyi bağırsaq hərəkətliliyini artıran daha çox həll olunmayan lif təmin etsə də, tərkibindəki ərəbinoksilanlar sayəsində çovdar həm qəbizliyin qarşısını alır, həm də uzunmüddətli bağırsaq sağlamlığını dəstəkləyir.

Tam buğda çörəyi protein və lif baxımından əla seçim olsa da, çovdar çörəyi ürək sağlamlığını qorumaq, xolesterolu aşağı salmaq və qan şəkərini nəzarətdə saxlamaq istəyənlər üçün qalibdir.

# Çəki itirməyin "qızıl düsturu"



**İnsanların əksəriyyəti yalnız qan təzyiqinin yüksəlməsi, təngnəfəslik və oynaq ağrıları kimi ciddi problemlərlə üzləşdikdən sonra çəkilərini azaltmağa qərar verirlər. Lakin aparılan sorğular göstərir ki, bu insanların 20 faizindən az hissəsi peşəkar tibbi dəstək üçün müraciət edir.**

Oxu.Az xəbər verir ki, bu barədə "aif.ru" saytına açıqlamasında professor, endokrinoloq Olesya Qurova danışıb.

Həkim vurğulayıb ki, arıqlama prosesində daxili hisslərə deyil, bədən kütləsi indeksi (BKİ) və belin ölçüsünə əsaslanmaq daha məqsədəuyğundur. Bu parametrlər şəkərli diabet, ürək-damar patologiyaları və digər təhlükələri obyektiv şəkildə dəyərləndirməyə imkan verir.

Mütəxəssis qeyd edib ki, artıq çəki uzun müddət özünü büruzə verməsə də, gələcəkdə ağır xəstəliklərin inkişaf ehtimalını yüksəldir. Hətta ümumi bədən çəkisinin 5-10 faiz azalması sağlamlıq risklərinin əhəmiyyətli dərəcədə qarşısını ala bilər.

Ekspertin sözlərinə görə, təkcə fiziki aktivlik və pəhriz saxlamaq hər zaman gözlənilən nəticəni vermir. Bədəndə gedən hormonal dəyişikliklər və iştaha nəzarətin pozulması səbəbindən verilən çəkinin yenidən qayıtması (residiv) ehtimalı yüksəkdir:

"Belə vəziyyətlərdə müasir təbabətin imkanlarından istifadə etmək, bəzən isə iştahanın cilovlanması və nəticənin saxlanması üçün dərman terapiyası tətbiq etmək lazımdır. Arıqlama prosesi isə tədricən - həftədə 0,5-1 kiloqram azalma ilə həyata keçirilməlidir".

Mütəxəssislər piylənməyə xroniki bir xəstəlik kimi yanaşır və fərdi seçilmiş pəhrizlərdənsə, peşəkar həkim nəzarətini daha önəmli hesab edirlər. Digər endokrinoloqlar isə 35 yaşından sonra arıqlamağın çətinləşməsi barədəki mifi yalanlayaraq, bu problemin əsasında daha çox insulin dirənci və hormonal disbalansın dayandığını bildiriblər.

Tibb işçiləri eyni zamanda xəbərdarlıq edirlər ki, qısa müddətdə sürətli çəki verməklə saç tökülməsi və həzm sistemində müxtəlif problemlərin yaranması ilə nəticələnə bilər. Ən ideal yol isə qidalanma rejiminin tarazlanması, keyfiyyətli məhsulların seçilməsi və porsiyaların düzgün tənzimlənməsidir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU
e-mail adres: yenimusavat@mail.ru
Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)
Lisenziya N: B 114
SAYI: 1.500
"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.